Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 18 (8041) CÜMƏ AXŞAMI, 24 yanvar 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az






## Prezident İlham Əliyevin həyata keçirdiyi islahatlar beynəlxalq təşkilatlar və qlobal şirkətlər tərəfindən yüksək qiymətləndirilir

Yanvarın 22-dən İsveçrənin Davos şəhərində 49-cu ənənəvi illik Dünya İqtisadi Forumu başlayıb. "Qloballaşma 4.0: 4-cü Sənaye İnqilabı dövründə yeni arxitekturanın yaradılması" devizi altında təşkil edilən forumun proqramına aktual qlobal hadisələrə həsr olunan müzakirələr daxildir. Bununla bağlı fikirlərini bölüşən Dünya İqtisadi Forumunun təsisçisi və icraçı sədri Karl Şvab bildirib ki, dünyada gedən sürətli dəyişikliklərlə bağlı beynəlxalq ictimaiyyət səylərini gücləndirməlidir.

### Ölkəmizə maraq həmişə böyükdür

Beləliklə, qloballaşan müasir dünyanın əsas problemləri builki forumun diqqət mərkəzində olacaq. Dördüncü sənaye inqilabının özü ilə gətirdiyi çağırışlar ekologiyanın qorunması üçün tələblər, çoxqütblü dünya nizamı və getdikcə artan qeyri-bərabərliklə birgə addımlayır. Bütün bu inkişaf istiqamətləri qloballaşmanın yeni erasının təməlini təşkil edirlər. Buna görə də, yerli, milli və beynəlxalq idarəçilikdə vaxtında yeni şəraitə uyğun adekvat addımların atılması tələb olunur.

Xatırladaq ki, Davos Dünya İqtisadi Forumu hər il keçirilir və burada ölkələrin siyasi liderləri iştirak edir. İlk dövrlərdə Avropa İdarəetmə Forumu olaraq tanınan forum avropalı iş adamlarının ABŞ-da biznes həyatına uyğunlaşmalarını asanlaşdırmaq və Amerika üsullu kapitalizmin qaydalarını avropalılara öyrətmək məqsədini daşıyan seminarlar silsiləsi idi. 1970-ci illərin ikinci yarısından etibarən bu tədbirdə məşhur iqtisadçı, biznesmen və siyasətçilərin bir araya gəlməsi, onu əhəmiyyətli dünya məsələlərinin müzakirə edildiyi platformaya çevirdi.

Hazırda dövlət-özəl tərəfdaşlığına çalışan Dünya İqtisadi Forumu müstəqil və tərəfsiz beynəlxalq ictimai təşkilatdır. İllik toplantılarda bütün sektorları təmsil edən iştirakçılar həllərə yönəlmiş müzakirələr aparırlar. Beynəlxalq medianın iştirakı, televiziya və veb-yayımları sayəsində Davos İqtisadi Forumu geniş ictimaiyyətin diqqət mərkəzində olur.

49-cu forum 3 gün davam edəcək. Dünyanın 100-dən çox ölkəsinin dövlət və hökumət rəhbərlərinin dəvət olunduğu budəfəki tədbirdə 1000-dən artıq qlobal şirkətin rəhbər şəxsləri, beynəlxalq qurumların və qeyri-hökumət təşkilatlarının təmsilçiləri, aparıcı media şirkətlərinin nümayəndələri iştirak edirlər.

Davos İqtisadi Forumunun əhəmiyyətini artıran mühüm göstəricilərdən biri də dünyanın bir illik iqtisadi gündəliyinin müəyyən edilməsidir. Bu işə Azərbaycan da öz töhfəsini verir. Çünki ölkəmiz artıq dünyada etibarlı tərəfdaş kimi tanınır və qəbul edilir. Forum çoxsaylı mövzular üzrə sessiyalardan ibarətdir ki, onların bir qismində müzakirə olunan mövzuların təməlində Azərbaycanın beynəlxalq əhəmiyyət kəsb edən məsələlərdəki aydın, dəqiq və konkret mövqeyi dayanır.

### Azərbaycan dördüncü sənaye inqilabına doğru qətiyyətli addımlar atır

Diqqət çəkən başqa xüsusi məqam isə foruma qatılan siyasətçilərin və biznes dairələrin nümayəndələrinin Azərbaycanın dünyanın siyasi və iqtisadi sistemindəki rolunu yüksək qiymətləndirməsi, o cümlədən bəşəriyyəti narahat edən risklərin aradan qaldırılmasında ölkəmizin mövqeyi ilə hesablaşmalarıdır. Azərbaycanın malik olduğu potensial, enerji resursları daim Dünya İqtisadi Forumunun əsas diqqət ayırdığı məsələlər sırasına daxil olur. Ona görə neçə illərdir ki, Dünya İqtisadi Forumunda təmsil olunan Azərbaycana maraq həmişə böyükdür. Bunu Prezident İlham Əliyevin keçirdiyi görüşlər də təsdiq edir. Eyni zamanda Azərbaycanın beynəlxalq birlikdəki mövqeyi də Dünya İqtisadi Forumu çərçivəsində keçirilən görüşlərin məzmunundan aydın hiss olunur.

Ardı 3-cü səh.

# Azərbaycan beynəlxalq daşımalarda çox mühüm tranzit ölkəyə çevrilib

Yanvarın 23-də Davosda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İsveçrə Konfederasiyasının Prezidenti Ueli Maurerin görüşü olub.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə İsveçrə arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı.

Prezident Ueli Maurer dedi ki, İsveçrə iş adamları Azərbaycanda biznes mühiti üçün yaradılan şəraitdən çox razıdırlar. Onlar Azərbaycanda iqtisadi inkişaf və biznes imkanlarının genişləndirilməsi üçün əlverişli şəraitin yaradıldığını bildirirlər. Azərbaycan ilə İsveçrə arasında hava əlaqəsinin açılması da əməkdaşlığın genişləndirilməsi baxımından böyük əhəmiyyət daşıyır.

Prezident İlham Əliyev Azərbaycanda infrastruktur sahəsində görülən işlərdən danışdı, respublikamızın beynəlxalq daşımalarda çox mühüm tranzit ölkəyə çevrildiyini dedi. Dövlətimizin başçısı dəmir yolu ilə yüklərin artıq Asiyadan Avropaya Azərbaycan ərazisindən daşınmasına başlandığını qeyd etdi. Prezident İlham Əliyev İsveçrədə istehsal olunan qatarların Azərbaycanda dəmir yolunun yenilənməsinə və inkişafına töhfə verdiyini vurğuladı, bu sahədə əməkdaşlığın uğurla davam etdiyini bildirdi.

Görüşdə SOCAR-ın İsveçrəyə investisiya qoymasının əməkdaşlığın genişləndirilməsi baxımından əhəmiyyəti qeyd olundu.

Prezident İlham Əliyev bildirdi ki, biz Azərbaycanın iqtisadi inkişafına daha çox İsveçrə şirkətinin investor qismində cəlb olunmasında maraqlıyıq. Dövlətimizin başçısı İsveçrə şirkətlərinin Azərbaycan ilə fəal əməkdaşlığı gələcəkdə də davam etdirəcəklərinə əminliyini bildirdi.

Söhbət zamanı qarşılıqlı ticarətin genişləndirilməsinin vacibliyi qeyd olundu. Azərbaycanda alternativ enerjinin istehsalında İsveçrə şirkətlərinin iştirakı məsələlərinə toxunuldu.



Prezident İlham Əliyev Azərbaycanda bu sahədə də geniş işlərin aparıldığını dedi və bu baxımdan İsveçrənin təcrübəsinin ölkəmizdə öyrənilməsinin əhəmiyyətini qeyd etdi. Dövlətimizin başçısı Azərbaycanda biznes mühiti üçün yaradılan şəraitin ölkəmizdəki inkişaf proseslərinin beynəlxalq təşkilatlar tərəfindən qeyd olunduğunu və beynəlxalq reytinqlərdə əksini tapdığını vurğuladı.

Görüşdə Azərbaycanda "Holcim" şirkəti tərəfindən sement zavodunun tikintisinin vaxtilə iqtisadi əməkdaşlığın əsasının qoyulmasında böyük rol oynadığı qeyd olundu. Dövlətimizin başçısı sement zavodunun Azərbaycanın iqtisadi inkişafında rolunu qeyd etdi.

Prezident Ueli Maurer bildirdi ki, Azərbaycan ilə iqtisadi əməkdaşlığın genişləndirilməsi üçün İsveçrə tərəfi də konkret addımların atılmasında maraqlıdır.

❖❖❖

Daha sonra Prezident İlham Əliyev Dünya İqtisadi Forumu çərçivəsində Rusiya Federasiyasının iqtisadi inkişaf naziri Maksim Oreşkin ilə görüşdü.

# Ölkəmizdə biznes mühiti və investorlar üçün yaradılan şərait mükəmməldir

Yanvarın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davosda "Procter and Gamble Europe" şirkətinin prezidenti Loik Tassel ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Loik Tassel son illərdə Azərbaycanda həyata keçirilən iqtisadi islahatların müsbət nəticələr verdiyini vurğulayaraq qeyd etdi ki, ölkədə yaradılan biznes mühiti və investorlar üçün şərait başqa şirkətlər kimi, "Procter and Gamble" şirkətini də Azərbaycanda öz fəaliyyətini genişləndirməyə həvəsləndirir.



"Procter and Gamble" şirkətinin Azərbaycandakı fəaliyyətinə toxunan Loik Tassel bildirdi ki, şirkət təkcə istehlak mallarının satışı ilə məşğul deyil, eyni zamanda, ölkədə reklam bazarının inkişafına əhəmiyyətli töhfə verir. Azərbaycanın televiziya məkanında ən böyük reklam sifarişçisi olan şirkət müxtəlif sosial layihələrə, idman yarışlarına sponsorluq və digər dəstək tədbirləri həyata keçirməklə sosial məsuliyyət missiyasını da yerinə yetirir.

Loik Tassel bildirdi ki, "Procter and Gamble" şirkəti yaranmış biznes mühitindən istifadə edərək regionda fəaliyyətini genişləndirmək istəyir. Bu məqsədlə Bakıda fəaliyyətini böyütməklə Orta Asiya və digər region ölkələrinə öz məhsullarının satışını artırmaq marağındadır. Azərbaycandakı mövcud biznes mühiti bu şirkətin regional mərkəz kimi Bakını seçməsinə səbəb olub.

Prezident İlham Əliyev Azərbaycanda yaradılan biznes mühiti, gömrük, vergi və digər sahələrdə həyata keçirilən islahatlardan danışdı. Dövlətimizin başçısı şirkətin Azərbaycandakı fəaliyyətinin genişləndirilməsi barədə qərarların düzgün olduğunu vurğuladı. Prezident İlham Əliyev Azərbaycan dövlətinin investorlara, sahibkarlara bundan sonra da dəstək verəcəyini bildirdi.

# Qarabağın şöhrət rəmzləri

## Dövlət onları yaşatmağa böyük önəm verir

Ağdam deyəndə göz önünə cənnət misallı Qarabağ gəlir, qartalların qıy vurduğu başı qarlı uca dağlar, durnagözlü bulaqlar, qayalara çırpıla-çırpıla arana can atan dəli çaylar, nəğməkar şəlalələr, gül-çiçəkli yamaclar, yaşıl ormanlar... yada düşür.

Qarabağın sirli-sehrli, ecazkar təbiəti, ürəkaçan, könül oxşayan mənzərələri bu yerin övladlarının xarakterində də özünü açıq-aydın göstərir desək, yanılmarıq. Yaz buludu kimi bir anın içərisində dolub-boşalırlar. Təbiətdən gələn səxavətləri ilə seçilər, kasıba, imkansıza əl tutmaqdan zövq alar, çətinədara düşənin dadına çatmağı insanlıq borcu bilərlər. Cavanları dəli-dolu, ağsaqqalları müdrik və tədbirli olarlar. Hamısını birləşdirən bir ümumi cəhət var. Bu, qürur və özünə güvəndir. Heç zaman ehtiyacını, üzləşdiyi problemi başı üzərinə qaldırıb haray-həşir salmaz, evdə ailəsi, uşağı ac qalsa da, bir tikə çörək üçün qürurunu sındırıb kimsəyə əl açmaz. Bəlkə də eldə-obada işlədilən "ac ol, amma kişi ol" məsəli elə buradan qaynaqlanır.

Ümummilli lider Heydər Əliyevin Qarabağ, Ağdam haqqında illər öncə söylədiyi bir fikir bu gün də son dərəcə aktualdır: "Qarabağsız, Ağdamsız Azərbaycan yaşaya bilməz". Ulu öndərin verdiyi bu yüksək dəyəri təkcə coğrafi yer anlamında qəbul etmək heç şübhəsiz yanlış olardı. Heydər Əliyev Qarabağı, Ağdamı təkcə füsunkar təbiətinə görə deyil, həm də vətən üçün, xalq üçün layiqli övladlarına görə yüksək qiymətləndirirdi.

Nankor qonşularımız öz ağalarının köməyi ilə illər öncə Qarabağı işğal etmiş, Ağdamı odlara qalayıb viran qoymuşdur. Ərazisinin dörddəüç hissəsi işğal olunmuş Ağdam rayonunun əhalisi respublikanın əksər bölgələrinə səpələnmiş, uzun illər ağır şəraitdə, çadırlarda, yük vaqonlarında yaşamalı olmuşlar. Prezidentlik fəaliyyətinə başlayarkən ölkədə bir dənə də olsun çadır şəhərciyi qalmayacaqdır deyib, qarşıdakı hədəfləri açıqlayan İlham Əliyev sözünü tutub, qaçqın və məcburi köçkünlərin həyat şəraitini yaxşılaşdırmaq üçün çox möhtəşəm tədbirlər gördü. Təkcə Ağdam rayonu ərazisində hər cür infrastruktura malik 18 yeni qəsəbə salındı.



Ardı 6-cı səh.

# Dünyada böyük etimad qazanan ölkə

Davos Dünya İqtisadi Forumu 49-cu dəfə bəşəriyyəti narahat edən vacib məsələlərin müzakirəsinə toplaşdı. Tədbirdə iştirak edən 110 ölkədən 3 mindən çox siyasətçi, sahibkar, iqtisadçı, elm və qeyri-hökumət təşkilatlarının nümayəndələri "Qloballaşma: Dördüncü sənaye inqilabı dövründə qlobal strukturu formalaşdırmaq" mövzusunda 350-dən çox iclas keçirəcəklər. Gündəmdə 2019-cu ilin qlobal riskləri və onların müzakirələri dayanır.

Qalstuksuz görüş qismində aparılan forum dünya üçün böyük əhəmiyyət kəsb etsə də, ABŞ Prezidenti Donald Tramp, İngiltərənin baş naziri Tereza Mey, Fransa Prezidenti Emmanuel Makron və Koreya Prezidenti Mun Çje İn bu tədbirə qatılmadılar.

Forumun hesabatında göstərilir ki, ilin ən böyük riskləri geosiyasi və geoiqtisadi mühitləri əhatə edir və iqlim böhranı ilə bağlıdır. Forumun yaydığı Qlobal Risk hesabatında böyük güclər arasında artan geosiyasi və geoiqtisadi gərginliklərin dünyanı parçalanma həddinə çatdırdığı bildirilir. Hesabatda bu ilin 5 əsas qlobal risklərindən 4-nün iqlimlə bağlı olduğu qeyd edilir. Kəskin qütblü, həm də bədbin və nikbin problemlərin toqquşduğu bu tədbirdə dünya liderləri, biznesmenlər, alimlər və məşhur iqtisadçılar yanvarın 22-dən 25-dək gərgin müzakirələrə qoşulacaq, fikir mübadiləsi aparacaqlar, dünya iqtisadiyyatının qaranlıq qalan məsələlərinə aydınlıq gətirməyə çalışacaqlar.

Xatırladaq ki, Azərbaycanı bu forumda ilk dəfə 1995-ci ildə ulu öndər Heydər Əliyev təmsil etmişdi. Ölkəmizə həsr olunan xüsusi tədbirdə ulu öndər respublikamız haqqında geniş məlumat vermişdi.

Prezident İlham Əliyev 2007-ci ildən Davos forumlarında iştirak edir. Dövlət başçısının təşəbbüsü ilə Dünya İqtisadi Forumu 2013-cü ildə "Cənubi Qafqazın və Mərkəzi Asiyanın gələcəyi ilə bağlı strateji dialoq" mövzusunda Bakıda keçirilmişdi.

Forumun builki tədbirinə qatılan Prezident İlham Əliyev yanvarın 21-də Davosda Dünya İqtisadi Forumunun prezidenti Borge Brende ilə görüşərkən ilk dəfə Azərbaycan Hökuməti və Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı Mərkəzi arasında əməkdaşlıq sazişi imzalandı. Dünya İqtisadi Forumunun prezidenti Borge Brende dövlətimizin başçısının rəhbərliyi ilə Azərbaycanın dördüncü sənaye inqilabına doğru qətiyyətli addımlar atdığını, son iyirmi ildə Bakının sürətlə, tanınmaz dərəcədə dəyişdiyini vurğuladı.

Ardı 3-cü səh.

# Xarici şirkətlərlə əlaqələr uğurla inkişaf etdirilir

Yanvarın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Davosda "The Boston Consulting Group" şirkətinin prezidenti və baş direktoru Riç Lesser ilə görüşü olub.

AZƏRTAC xəbər verir ki, görüşdə Riç Lesser "The Boston Consulting Group"un rəqəmsal iqtisadiyyatın inkişafı istiqamətində müxtəlif həll variantları işləyib hazırlayan qlobal şirkətlərdən biri olduğunu vurğulayaraq Azərbaycan ilə əməkdaşlıqdan məmnunluğunu ifadə etdi. O, Azərbaycanda həyata keçirilən islahatları, yaradılan biznes mühitini və sürətli inkişafı dəstəklədiklərini bildirdi. Riç Lesser həm dövlət qurumlarının, həm də özəl şirkətlərin fəaliyyətində, səhiyyə, icbari tibbi sığorta və digər sahələrdə daha yüksək idarəçiliyi təmin edəcək rəqəmsal həll variantlarına malik olduqlarını dedi. Qeyd edildi ki, Azərbaycanda bu həll variantlarının tətbiqi həm yeni iş yerlərinin yaradılmasına səbəb olacaq, həm də Prezident İlham Əliyevin həyata keçirdiyi idarəetmə sistemlərinin daha da təkmilləşdirilməsinə mühüm töhfə verəcək.



Prezident İlham Əliyev "The Boston Consulting Group" şirkətinin Azərbaycandakı fəaliyyətindən məmnunluğunu bildirdi. Dövlət başçısı Azərbaycanın müxtəlif dövlət və özəl şirkətlər ilə əməkdaşlığının, biznes mühitinə dəstəyin bundan sonra da davam etdiriləcəyini bildirdi.

# Azərbaycan Prezidenti tərəfindən xarici investorlara göstərilən dəstəyin əhəmiyyəti böyükdür

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 23-də Davosda "Lazard Freres" şirkətinin baş icraçı direktoru Metyu Piqas ilə görüşüb.



AZƏRTAC xəbər verir ki, Metyu Piqas şirkətin 2000-ci ildən Azərbaycanda müxtəlif layihələrin maliyyələşməsi və investisiya məsələlərinin həlli üzrə məsləhət xidmətləri göstərdiklərini vurğuladı. O, 2017-ci ildə şirkətin Azərbaycan Beynəlxalq Bankının borclarının şaxələndirilməsində iştirak etdiyini və bankın maliyyə məsləhətçisi olduğunu bildirdi. Azərbaycan Beynəlxalq Bankının restrukturizasiyasının uğurla başa çatdığını və bunun beynəlxalq təşkilatlar tərəfindən də qəbul olunduğunu xüsusi vurğulayan Metyu Piqas respublikamızda yaradılan biznes mühitinin, sahibkarlara göstərilən dəstəyin və ölkəmizin iqtisadi uğurlarının "Doing Business 2019" hesabatında əks olunmasının Azərbaycanda investisiya məsələlərinə dair konfransların və digər tədbirlərin keçirilməsi üçün əlverişli şərait yaratdığını bildirdi. Qeyd olundu ki, qlobal şirkətlər və investorlar Azərbaycanda belə böyük tədbirlərin keçirilməsində çox maraqlıdır. Bu, həm də Azərbaycan Prezidenti tərəfindən xarici investorlara göstərilən dəstəyin, sərmayələrin cəlb olunması, biznes mühitinin daha da yaxşılaşdırılması istiqamətlərində qəbul edilən qərarların və görülən tədbirlərin dəstəklənməsi baxımından çox əhəmiyyətlidir. Metyu Piqas maliyyə məsləhətçisi kimi öz xidmətlərini təklif edərək Azərbaycanda bu sahədə fəal əməkdaşlıq üçün böyük potensialın olduğunu dedi.

Prezident İlham Əliyev "Lazard Freres" şirkətinin fəaliyyətindən razılığını bildirdi. Dövlətimizin başçısı şirkət ilə əməkdaşlığın bundan sonra da davam etdiriləcəyini vurğuladı.

# Bank sektorunda xarici əməkdaşlıq real nəticələr verir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanvarın 23-də Davosda "VTB-Bank"ın prezidenti-idarə heyətinin sədri Andrey Kostin ilə görüşü olub.

AZƏRTAC xəbər verir ki, görüşdə "VTB-Bank" ilə uğurlu əməkdaşlığın həyata keçirildiyi, bankın Azərbaycanda səmərəli fəaliyyət göstərdiyi qeyd olundu.

Söhbət zamanı Azərbaycanda bank sektorunun inkişafı, bu sahədə özəl sektorun fəaliyyəti üçün daha əlverişli mühitin yaradılması istiqamətində görülən tədbirlərin əhəmiyyəti vurğulandı, əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparıldı.

# "Suez Group" respublikamızla əlaqələrin genişləndirilməsində maraqlıdır

Yanvarın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Davosda "Suez Group" şirkətinin beynəlxalq inkişaf üzrə icraçı vitse-prezidenti Erik Gebali ilə görüşü olub.

AZƏRTAC xəbər verir ki, görüşdə Erik Gebali "Suez Group"un Azərbaycanda su infrastrukturunun inkişaf etdirilməsi sahəsində fəaliyyətindən və ölkəmizlə əməkdaşlığın uğurlu olmasından danışdı. O, Azərbaycan ilə əməkdaşlığın daha da genişləndirilməsində maraqlı olduqlarını bildirdi.

Prezident İlham Əliyev "Suez Group" ilə əməkdaşlıq çərçivəsində görülən işlərin əhəmiyyətini vurğuladı, şirkətlə əməkdaşlığın ölkəmizdə su infrastrukturunun daha da təkmilləşdirilməsinə böyük töhfə verdiyini qeyd etdi.



# "Equinor" şirkətinin ölkəmizdə fəaliyyəti məmnunluq doğurur

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 23-də Davosda "Equinor" (keçmiş "Statoil") şirkətinin baş icraçı direktoru Eldar Saetre ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə "Azəri-Çıraq-Günəşli" yataqlar bloku ilə bağlı SOCAR-la "Equinor" şirkəti arasında əməkdaşlıq məsələləri müzakirə olundu.

Dövlətimizin başçısı "Equinor"un Azərbaycanda fəaliyyətini davam etdirməsindən məmnunluğunu bildirdi.

Söhbət zamanı "Qarabağ", "Əşrəfi", "Dan ulduzu" perspektiv layihələri və "Dədə Qorqud" qurğusunun təmiri ilə bağlı fikir mübadiləsi aparıldı.



# Səfər başa çatdı

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İsveçrə Konfederasiyasına səfəri yanvarın 23-də başa çatdı.

## *Hikmət HACIYEV:*

## "Azərbaycan Prezidenti ilə Ermənistan baş nazirinin Davosdakı görüşü Düşənbə və Sankt-Peterburqdakı görüşlərin davamı kimi qiymətləndirilə bilər"

Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Ermənistanın baş naziri Nikol Paşinyanın Davos Dünya İqtisadi Forumu çərçivəsində keçirilən qeyri-rəsmi görüşü ilə bağlı AZƏRTAC-ın sualını cavablandırıb.

**- Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistanın baş naziri Nikol Paşinyanın Davos Dünya İqtisadi Forumu çərçivəsində keçirilən qeyri-rəsmi görüşü barədə nə deyərdiniz?**

- Bu görüş Dünya İqtisadi Forumunun prezidenti Borge Brendenin təşəbbüsü ilə keçirilib. Görüş Düşənbə və Sankt-Peterburqda MDB Zirvə toplantısı çərçivəsində baş tutmuş qeyri-rəsmi görüşlərin davamı kimi qiymətləndirilə bilər.

Bildiyiniz kimi, danışıqlar prosesi Ermənistan və Azərbaycan xarici işlər nazirləri səviyyəsində aparılır. Belə ki, bu il yanvarın 16-da Parisdə, 2018-ci il dekabrın 3-də isə Milanda Ermənistan və Azərbaycan xarici işlər nazirlərinin görüşü keçirilib. Qarşıdan gələn dövrdə də xarici işlər nazirləri səviyyəsində görüşün keçirilməsi nəzərdə tutulub.



Tam formatda dövlət başçıları səviyyəsində görüş, bir qayda olaraq, ATƏT-in Minsk qrupunun həmsədrləri tərəfindən təşkil olunur.

# Prezident İlham Əliyev bütün görüş və danışıqlarda diqqəti Ermənistanın işğalçılıq siyasətinə yönəldir

"İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 76-cı kitabı çapdan çıxıb. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin növbəti kitabındakı materiallar 2016-cı ilin sentyabrından oktyabr ayınadək olan dövrü əhatə edir.




Həmin dövrdə Azərbaycanın yüksək səviyyədə təmsil olunduğu mühüm beynəlxalq tədbirlərdən biri İstanbulda keçirilən 23-cü Dünya Enerji Konqresi olub. Prezident İlham Əliyevin bununla əlaqədar Türkiyəyə işgüzar səfəri zamanı keçirdiyi görüşlər barədə informasiyalar, Azərbaycan və Türkiyə prezidentlərinin "Space" televiziyasının müxbirinin sualına cavablarının və dövlət başçısının konqresdə çıxışının mətnləri kitabda yer alıb. Dövlət başçısı çıxışında deyib: "Enerji təhlükəsizliyi məsələləri gələcəkdə də öz həllini tapmalıdır. Təbii qaynaqlarla zəngin olan ölkələr, tranzit ölkələr, istehlakçı ölkələr burada bir komanda kimi fəaliyyət göstərməlidir, heç bir əsassız rəqabətə yol verilməməlidir, sağlam rəqabət aparılmalıdır. Neft-qaz hasil edən və ixrac edən ölkələr arasında daha çox anlaşma olmalıdır. Azərbaycan hər zaman bunun tərəfdarı olub ki, burada biz xalqlarımızın, ölkələrimizin maraqlarını təmin edə bilək. Bizim enerji siyasətimiz imkan verdi ki, biz özümüz də xarici ölkələrə sərmayə qoyaq".

Kitaba Prezident İlham Əliyevin Azərbaycana səfər etmiş Roma Papası Fransisk ilə görüşünün materialları, Venesuela Bolivar Respublikası və Xorvatiya Respublikası prezidentləri ilə apardığı danışıqlara dair informasiyalar, dövlət başçılarının mətbuata bəyanatlarının, Prezident İlham Əliyevin Azərbaycan-Xorvatiya Biznes Forumunda çıxışının mətnləri daxil edilib. Azərbaycan Prezidenti bütün görüş və danışıqlarda diqqəti Ermənistanın işğalçılıq siyasətinə yönəldib, dünya ictimaiyyətini regionun inkişafına əngəl olan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində həllinə dəstək olmağa çağırıb.

Çoxcildliyin 76-cı kitabında, həmçinin Prezident İlham Əliyevin Rusiya, Belarus, Pakistan, Türkiyə, Bolqarıstan, Tacikistan, ABŞ, Rumıniya və digər dövlətlərin, AŞ PA, Afrika İttifaqı, ATƏT və Avropa İttifaqının ölkəmizə səfər etmiş yüksəkvəzifəli şəxslərini, Bakının evsahibliyi etdiyi beynəlxalq tədbirlərin yüksəksəviyyəli iştirakçılarını qəbul etməsinə dair materiallar yer alıb.

Oxucu bu cilddə dövlət başçısının Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümünə həsr olunmuş rəsmi qəbulda nitqinin, Rio-de-Janeyroda keçirilən XV Yay Paralimpiya Oyunlarında iştirak etmiş idmançılarla görüşündə çıxışının, V Bakı Beynəlxalq Humanitar Forumunun açılış mərasimində söylədiyi nitqin, "Rossiya seqodnya" Beynəlxalq İnformasiya Agentliyinə verdiyi geniş müsahibəsinin mətnləri ilə də tanış ola bilər.

Bu kitabda Prezident İlham Əliyevin Nazirlər Kabinetinin 2016-cı ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında nitqinin mətni, Mingəçevir və Sumqayıt şəhərlərinə, Qazax və Ağstafa rayonlarına səfərləri zamanı iqtisadi və sosial infrastruktur obyektlərinin açılışlarında iştirakı, ictimaiyyət nümayəndələri ilə görüşləri haqqında materiallar da verilib.

Nəşrə ölkə rəhbərinin "ADEX-2016" II Azərbaycan Beynəlxalq Müdafiə Sərgisinin, VII Azərbaycan-Rusiya Regionlararası Forumunun iştirakçılarına müraciətlərinin mətnləri, habelə müxtəlif məktubları daxil edilib.

Kitabda "Qeydlər", "Şəxsi adlar", "Coğrafi adlar" göstəriciləri verilib.

"Azərnəşr" tərəfindən buraxılan 76-cı kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# Dünyada böyük etimad qazanan ölkə

Əvvəli 1-ci səh.

Cənab İlham Əliyev Azərbaycan Hökuməti və Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı Mərkəzi arasında imzalanan əməkdaşlıq sazişinin vacibliyini qeyd edərək bu sənədin ölkəmizin tərəfdaşlıq ruhunu və qarşılıqlı səyləri davam etdirməkdə maraqlı olduğunu bildirdi. Dövlətimizin başçısı ölkəmizdə aparılan islahatlar, inkişaf prosesləri barədə məlumat verdi. Məxsusi olaraq böyük nəqliyyat və infrastruktur layihələrinin, o cümlədən Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizləri ilə bağlı layihələrin, enerji layihələrinin reallaşdırılmasının ölkəmiz və region üçün əhəmiyyətini qeyd edən dövlət başçısı həm də Azərbaycanda biznes mühitinin daha da inkişaf etdirilməsi istiqamətində aparılan islahatlardan danışdı.

Yanvarın 22-də dövlət başçısının Davosda Dünya Bankının baş icraçı direktoru xanım Kristalina Georgiyeva, "SAP SE" şirkətinin baş icraçı direktoru Bill Makdermot, BP qrupunun baş icraçı direktoru Robert Dadli və "Visa" şirkətinin prezidenti Rayan MakInerni ilə görüşləri olmuşdur. Bundan başqa, İlham Əliyev Gürcüstanın Baş naziri Mamuka Baxtadze ilə görüş keçirmişdir.



Diqqətçəkən odur ki, Davosda Azərbaycana maraq ildən-ilə artmaqdadır. Sonuncu və ondan əvvəlki forumlarda müxtəlif ölkələrin liderləri, nəhəng şirkətlərin rəhbərləri, məşhur iqtisadçılar Prezident İlham Əliyevlə görüşlərində onun rəhbərliyi ilə son illərdə ölkəmizdə həyata keçirilən islahatları dəstəkləyir, reallaşdırılan inkişaf proqramlarının onlarda böyük maraq və rəğbət doğurduğunu bildirirlər. Dünyanın aparıcı şirkətləri bu mötəbər forumda Azərbaycanın iqtisadi siyasətinin reallaşdırılmasında, yeni texnologiyaların və innovasiyaların tətbiqində dəstək verməyə hazır olduqlarını bildirirlər. Ölkə iqtisadiyyatındakı mövcud sabitliyin və maliyyə dayanıqlılığının ildən-ilə güclənməsi xarici sərmayədarları cəlb edir, biznesin qurulması və inkişafı istiqamətində atılan addımlar, tətbiq edilən yeniliklər və güzəştlər hamının diqqətini çəkir. Bu baxımdan dünyanın ən məşhur şirkətlərinin Azərbaycanla əməkdaşlıqda maraqlı olması başa düşüləndir.

Prezident İlham Əliyev Davosda görüşdüyü şirkət rəhbərləri ilə söhbətlərində ölkəmizdə taleyüklü iqtisadi məsələlərin həlli istiqamətində müasir dünyanın tələbləri səviyyəsində islahatların aparıldığı barədə də məlumat vermiş, bir sıra şirkətlərin ölkəmizdəki fəaliyyətindən məmnun qaldığını ifadə etmiş və qarşılıqlı əməkdaşlığın vacibliyini qeyd etmişdir.

Azərbaycanın qazandığı iqtisadi uğurlar və islahatların dərinləşməsi, əldə olunan müsbət nəticələr beynəlxalq reytinqlərdə, demək olar ki, hər il təsdiqini tapır. "Doing Business 2019" hesabatında Azərbaycan 32 pillə irəliləyərək 57-ci yerdən 25-ci yerədək yüksəlmişdir. Məhz bu amillərə əsaslanan dövlət başçısı Davosda əminliklə qarşılıqlı əməkdaşlıq səylərinin daha da gücləndirilməsinin zəruriliyini görüşdüyü şirkət rəhbərlərinin diqqətinə çatdırmışdır. Bir sözlə demək olar ki, Azərbaycan Davos Dünya İqrisadi Forumunun diqqət mərkəzində olan ölkələrdəndir. Azərbaycan Prezidentinin yanvarın 21-də Davosda "Rossiya 1", Çinin CGTN (China Global Television Network) televiziya kanallarına müsahibə verməsi də bu marağın təzahürü kimidir.

*Bahadur İMANQULİYEV,*
*"Azərbaycan"*

# Davosda Azərbaycan zəfəri

Prezident İlham Əliyevin həyata keçirdiyi islahatlar beynəlxalq təşkilatlar və qlobal şirkətlər tərəfindən yüksək qiymətləndirilir

Əvvəli 1-ci səh.

Bu mənada Dünya İqtisadi Forumu hər il yanvar ayında Davosda baş tutan toplantısında Azərbaycanın təmsil olunmasında maraqlıdır.

49-cu Davos Dünya İqtisadi Forumunda iştirak edən Prezident İlham Əliyevin ilk görüşünü forumun prezidenti Borge Brende ilə keçirməsi də Azərbaycanın dövlət başçısına olan ehtiramın və ölkəmizə olan yüksək marağın göstəricisidir. Prezident İlham Əliyev növbəti dəfə Dünya İqtisadi Forumunda iştirakından və forumla Azərbaycan arasında əməkdaşlıq əlaqələrinin yüksək səviyyədə olmasından məmnunluğunu ifadə etdi. Forumun dünyada gedən transformasiya prosesinin yeni təmayülləri və çağırışların müzakirəsi baxımından əhəmiyyətini vurğulayan dövlətimizin başçısı Azərbaycanın öz inkişaf strategiyasını yenilənən beynəlxalq və regional təmayüllər nəzərə alınmaqla qurduğunu bildirdi.

Qeyd edək ki, Davosda Azərbaycan Hökuməti ilə Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı Mərkəzi arasında ilk dəfə olaraq əməkdaşlığın təməli qoyuldu. Bu məqsədlə Azərbaycan Prezidenti İlham Əliyev və Dünya İqtisadi Forumunun prezidenti Borge Brende arasında əməkdaşlıq sazişinin təntənəli mübadiləsi həyata keçirildi. Prezident İlham Əliyev Azərbaycanın dördüncü sənaye inqilabının hədəflərinin həyata keçirilməsində çox fəal iştirak edəcəyini bildirib.

### Səfərinin əsas məqsədi Prezident İlham Əliyevlə görüşmək olub

Prezident İlham Əliyevin Davosda keçirdiyi hər bir görüş bu səfərin də ötənilkilər kimi səmərəli və məhsuldar keçdiyini göstərdi. Çünki Prezident İlham Əliyevlə görüşənlər dünyaca məşhur, nüfuzlu və qabaqcıl şirkətlərin, təşkilatların rəhbər təmsilçiləridir. Azərbaycan Prezidentinin "Visa" şirkətinin prezidenti Rayan MakInerni, BP qrupunun baş icraçı direktoru Robert Dadli, "CISCO" şirkətinin icraçı vitse-prezidenti Gerri Elliott, "SAP SE" şirkətinin baş icraçı direktoru Bill MakDermot, Dünya Bankının baş icraçı direktoru Kristalina Georgiyeva, Rusiyanın "LUKoil" şirkətinin prezidenti Vahid Ələkbərov, "Total" şirkətinin baş icraçı direktoru Patrik Puyannen, "Microsoft" şirkətinin vitse-prezidenti Mişel Van Der Bel, "Signify" şirkətinin (keçmiş "Philips Lightning") baş icraçı direktoru Erik Rondolat, "Procter and Gamble Europe" şirkətinin prezidenti Loik Tassel və "The Boston Consulting Group" şirkətinin prezidenti və baş direktoru Riç Lesser ilə görüşlərində ölkəmizlə birgə həyata keçirilən layihələrin əhəmiyyətindən, gələcək əməkdaşlıq perspektivlərindən söz açıldı.

Bu görüşlərdə diqqəti çəkən xüsusi məqam isə həmin şirkətlərin təmsilçilərinin Azərbaycan və Prezident İlham Əliyevlə bağlı fikirləri oldu. Məsələn, "Visa" şirkətinin prezidenti Rayan MakInerni bildirib ki, bu il onun Davosa səfərlərinin əsas məqsədi məhz Prezident İlham Əliyevlə görüşmək olub. O, nağdsız ödənişlərin inkişafı üçün Azərbaycanda tətbiq edilən vergi güzəştlərinin və digər təşəbbüslərin çox faydalı olacağını qeyd edərək, bunun başqa ölkələr üçün də nümunə olduğunu bildirib.

### İslahatları aparan bacarıqlı lider amili

"CISCO" şirkətinin icraçı vitse-prezidenti və satış rəhbəri Gerri Elliott isə bildirib ki, Azərbaycan regionda şirkətin əməkdaşlıqda maraqlı olduğu ən mühüm dövlətlərdən biridir. Şirkətin layihələrinə göstərdiyi dəstəyə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirən Gerri Elliott hər bir dövlətin inkişafı üçün lazım olan üç əsas istiqaməti Azərbaycanda müşahidə etdiklərini vurğulayıb. Bu baxımdan Azərbaycanda islahatları aparan bacarıqlı liderin olmasının, konkret inkişaf planlarının mövcudluğunun, bu planların reallaşdırılmasını və dövlətin inkişafını təmin edəcək hədəflərə çatmaq üçün məsul qurumların müəyyənləşdirilməsinin ölkənin tərəqqisində əsas amillər olduğunu qeyd edib.

"SAP SE" şirkətinin baş icraçı direktoru Bill MakDermot Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatların və Azərbaycanın inkişaf proqramlarının onlarda böyük maraq oyatdığını bildirib. Şirkətin artıq Bakıda ofis açdığını deyən Bill MakDermot Prezident İlham Əliyevin həyata keçirdiyi iqtisadi siyasətin reallaşdırılmasında və rəqəmsal iqtisadiyyatın formalaşmasında "SAP SE" şirkətinin dəstək verməyə hazır olduğunu ifadə edib. Qeyd edib ki, şirkət həm dövlət sektorunda, həm də özəl sektorda rəqəmsal iqtisadiyyatın, ümumiyyətlə, rəqəmsallaşmanın inkişafına töhfə verə bilər. Azərbaycan dövlətinin başçısının həyata keçirdiyi iqtisadi siyasət onlarda bu inamı yaradır.

### "Doing Business" reytinqinin tarixində ən uğurlu və böyük nailiyyətlərdən biri

Dünya Bankının baş icraçı direktoru Kristalina Georgiyeva Prezident İlham Əliyevi ölkədə aparılan uğurlu islahatlar və Azərbaycanın Dünya Bankının "Doing Business 2019" hesabatında 25-ci yerə yüksəlməsi münasibətilə təbrik edib. Bildirib ki, bu, Dünya Bankının "Doing Business" reytinqinin tarixində ən uğurlu və böyük nailiyyətlərdən biridir. O, bu uğurlu islahatların bundan sonra da davam etdirilməsinin önəmini vurğulayıb.

Azərbaycan ilə əməkdaşlıqdan məmnunluğunu bildirən Kristalina Georgiyeva onu da qeyd edib ki, Prezident İlham Əliyevin həyata keçirdiyi struktur islahatlarının və iqtisadi islahatların əhəmiyyəti son illər dünyada iqtisadi artım sürətinin azalması fonunda daha da artmaqdadır. Onun sözlərinə görə, Dünya Bankı Azərbaycanda reallaşdırılan iqtisadi siyasəti və islahatları dəstəkləyir. Çünki bu islahatlar Azərbaycanda iqtisadiyyatın davamlı inkişafına, yeni iş yerlərinin yaranmasına mühüm dəstək verəcək.

Dünya Bankının baş icraçı direktoru onu da bildirib ki, Azərbaycan vaxtilə Dünya Bankından yardım alan ölkədən qısa müddətdə donor ölkəyə çevrilib. Bu da son iyirmi ildə Azərbaycanda bütün sahələrdə həyata keçirilən islahatların nəticəsində mümkün olub.

Vitse-prezident Mişel Van Der Bel dünyanın aparıcı texnoloji şirkəti olan "Microsoft"un Azərbaycanda həyata keçirilən layihələrə dəstəyinin bundan sonra da davam etdirəcəyini deyib.

### Əlverişli biznes mühiti xarici şirkətləri həvəsləndirir

"Procter and Gamble Europe" şirkətinin prezidenti Loik Tassel son illərdə Azərbaycanda həyata keçirilən iqtisadi islahatların müsbət nəticələr verdiyini vurğulayıb. Qeyd edib ki, ölkədə yaradılan biznes mühiti və investorlar üçün şərait başqa şirkətlər kimi, "Procter and Gamble" şirkətini də Azərbaycanda öz fəaliyyətini genişləndirməyə həvəsləndirir. Bu məqsədlə şirkət Bakıda fəaliyyətini böyütməklə Orta Asiya və digər region ölkələrinə öz məhsullarının satışını artırmaq marağındadır. Azərbaycandakı mövcud biznes mühiti bu şirkətin regional mərkəz kimi Bakını seçməsinə səbəb olub.

"The Boston Consulting Group" şirkətinin prezidenti Riç Lesser də Azərbaycanla əməkdaşlıqdan məmnun olduqlarını ifadə edib, ölkəmizdə keçirilən islahatları, yaradılan biznes mühitini və sürətli inkişafı dəstəklədiklərini bildirib.

Göründüyü kimi, öz qabaqcıl fəaliyyətləri ilə dünyada tanınan şirkətlərin rəhbərləri Prezident İlham Əliyevin həyata keçirdiyi islahatları yüksək qiymətləndirir və Azərbaycanda yeni layihələr həyata keçirməkdə maraqlı olduqlarını gizlətmirlər. Çünki həyata keçirilən son islahatlar Azərbaycandakı biznes mühitini, sərmayələrin yatırılmasını, yeni iqtisadi layihələrin həyata keçirilməsini daha da əlverişli edib. Təsadüfi deyil ki, məşhur şirkətlər də bunu görür, dəyərləndirir və Azərbaycanla əməkdaşlığa səy göstərirlər.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# Ukrayna və Belarus mətbuatı Prezident İlham Əliyevin Dünya İqtisadi Forumunda iştirakına geniş yer ayırıb

Ukrayna və Belarus mətbuatı Azərbaycan Prezidenti İlham Əliyevin Davosda Dünya İqtisadi Forumunda iştirakını geniş işıqlandırıb. AZƏRTAC xəbər verir ki, Ukraynanın UKRİNFORM dövlət agentliyi "Davosda "Bir kəmər, bir yol" təşəbbüsü müzakirə edilib" sərlövhəli yazıda Prezident İlham Əliyevin çıxışına geniş yer verib. Yazıda vurğulanır ki, Azərbaycan Prezidenti layihəyə tam dəstək verdiyini bəyan edib. "Azərbaycan "Şərq-Qərb nəqliyyat dəhlizi" təşəbbüsünün fəal üzvüdür. Biz əlbəttə ki, Çin hökumətinin "Bir kəmər, bir yol" təşəbbüsünü dəstəkləyirik. Azərbaycan özündən şimalda və cənubda yerləşən ölkələrə bu layihəyə qoşulmaq üçün imkanlar yaradır", - deyə dövlətimizin başçısının çıxışından sitat gətirilib.

Belarusun BELTA dövlət agentliyi də Prezident İlham Əliyevin Davosda "Bir kəmər, bir yol" təşəbbüsünə dair keçirilən konfransda iştirakına geniş yer ayırıb. "Azərbaycan "Şərq-Qərb nəqliyyat dəhlizi" təşəbbüsünün fəal üzvüdür" sərlövhəli məqalədə Prezident İlham Əliyevin konfransdakı çıxışından fikirlər əksini tapıb: "Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin üzvü olan yeganə ölkədir. Bunun üçün dəmiryolu sistemlərimizin müasirləşdirilməsi, Xəzərin sahilində 25 milyon tona qədər yük daşımaq gücündə olan ən böyük dəniz limanının tikintisi, Avropa və Asiya arasında çatışmayan bağlantının yaradılması ilə bizi Türkiyə və Avropa ilə birləşdirən Bakı-Tbilisi-Qars dəmiryolunun inşası yollarımızdan istifadə etmək istəyənlərə yaxşı şərait yaradır. Biz yaxşı tarif siyasətini yaratmaq üçün vəsait sərf edirik. Yükdaşımaların həcmi də artır. Yalnız Şimal-Cənub dəhlizi vasitəsilə keçən il ondan əvvəlki illə müqayisədə on dəfə çox yük daşınıb".

# Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin yaz sessiyasında ilk iclası keçirildi

Yanvarın 23-də Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin yaz sessiyasında ilk iclası keçirildi. Komitənin sədri Əli Hüseynli əvvəlcə 2018-ci ilin payız sessiyası dövründə görülən işlər barədə məlumat verdi.



Bildirildi ki, hesabat dövründə komitənin 25 iclası keçirilib və 169 məsələ müzakirə olunub.

Komitənin payız sessiyası dövründə fəaliyyəti qənaətbəxş qiymətləndirildi.

Daha sonra komitənin 2019-cu il yaz sessiyası üçün nəzərdə tutulan qanunvericilik işləri planı müzakirə olunub təsdiqləndi. İşlər planına Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Ali Məhkəməsinin, Azərbaycan Respublikası baş prokurorunun, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qanunvericilik təşəbbüsü qaydasında təqdim etdiyi qanun layihələri, eləcə də "Peşə birlikləri haqqında", "Sosial sifarişlər haqqında", Azərbaycan Respublikasının qanunlarında dəyişikliklər edilməsi haqqında qanun layihələrinin daxil edildiyi diqqətə çatdırıldı.

Bildirildi ki, "Peşə birlikləri haqqında" qanun layihəsi bu fəaliyyət növünün hüquqi tənzimlənməsi məqsədini daşıyır, eyni zamanda, bu sahədə çalışan insanların hüquqlarının qorunmasına xidmət edəcək. "Sosial sifarişlər haqqında" qanun layihəsinə QHT-lərin, vətəndaş cəmiyyətlərinin bir çox sosial əhəmiyyətli layihələrin icrasında iştirakının qanunla tənzimlənməsi baxımından ehtiyac olduğu qeyd edildi.

İclasda "Azərbaycan Respublikasının Dövlət gerbi haqqında" və "Azərbaycan Respublikasının Dövlət himni haqqında" qanun layihələri ikinci oxunuşda müzakirə edildi. Bildirildi ki, hər iki layihə "Azərbaycan Respublikası Dövlət gerbinin təsvirinin təsdiq edilməsi haqqında" və "Azərbaycan Respublikası Dövlət himninin musiqisinin və mətninin təsdiq edilməsi haqqında" Konstitusiya qanunlarının tətbiqi məqsədilə hazırlanıb.

Bundan başqa, "Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında" qanunda dəyişiklik edilməsi barədə layihə ikinci oxunuşda baxıldı. Qeyd edildi ki, layihə Azərbaycan Respublikasının 1996-cı il 17 may tarixli qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi"nə uyğunlaşdırma və Milli Məclis haqqında qanunvericiliyin təkmilləşdirilməsi məqsədilə hazırlanıb.

Eyni zamanda, gündəlikdəki "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında", "Azərbaycan Respublikasının "Sərhəddə fərqlənməyə görə" medalının Əsasnaməsinin təsvirinin təsdiq edilməsi haqqında", "Azərbaycan Respublikası Silahlı Qüvvələri Qarnizon və qarovul xidmətləri Nizamnaməsinin təsdiq edilməsi haqqında", "Əhalinin sağlamlığının qorunması haqqında", "Hərbi xidmət keçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Dövlət əmlakının özəlləşdirilməsi haqqında", "Azərbaycan Respublikasında dövlət dili haqqında", "İnzibati icraat haqqında", "15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşının fərdi identifikasiya kartı haqqında", "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında", İnzibati Xətalar Məcəlləsində və "Avtomobil nəqliyyatı haqqında" qanunda, "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında", "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında" və "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" qanunlarda, eləcə də Seçki Məcəlləsində, Əmək Məcəlləsində və Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihələri də müzakirə edildi. Bildirildi ki, nəzərdə tutulan bütün dəyişikliklər texniki xarakter daşıyır.

Müzakirəyə çıxarılan bütün qanun layihələri Milli Məclisin plenar iclasına tövsiyə olundu.

*Fərizə ƏHMƏDOVA,*
*"Azərbaycan"*

## Səməd SEYİDOV:

# "Ölkələrlə qarşıdurma deyil, dialoq yaratmaq lazımdır"

Çox qəribədir, imzalamadığımız bir sənəddən imtina etməyimiz istənilir. AZƏRTAC xəbər verir ki, bu fikri AŞ PA-nın "Şəriət qanununun İnsan Hüquqları üzrə Avropa Konvensiyasına uyğunluğu: Konvensiyaya qoşulan ölkələr Qahirə Bəyannaməsinin iştirakçısı ola bilərmi?" adlı məruzənin müzakirələri zamanı qurumdakı nümayəndə heyətimizin rəhbəri Səməd Seyidov söyləyib.

Nümayəndə heyətinin rəhbəri bildirib ki, Avropa Şurası 10 il əvvəl Azərbaycanla fəxr edirdi. Bakıda Avropa Şurasına üzv olan 47 ölkənin, eləcə də 10 İslam ölkəsinin mədəniyyət nazirlərinin konfransında Bakı Bəyannaməsi imzalandı. Qarşılıqlı anlaşma, mədəniyyətlərarası əlaqələr, birgə gələcək, insan hüquqları haqqında olan bu bəyannamənin imzalanması yüksək qiymətləndirildi. Ancaq 10 il sonra Azərbaycan, Albaniya və Türkiyədən heç vaxt imzalamadığımız Qahirə Bəyannaməsindən imtina etmək tələb olunur. Azərbaycan 1991-ci ildə İslam Əməkdaşlıq Təşkilatının üzvü olub. Qahirə Bəyannaməsi isə 1990-cı ildə imzalanıb. Ölkəmiz heç vaxt Qahirə Bəyannaməsini imzalamayıb. Biz dünyəvi ölkəyik. Bakının mərkəzində kilsə, sinaqoqlar var, onların sayı çoxalır. Ölkəmizdə əhalinin əksəriyyəti müsəlmandır. Biz müsəlman irsimizlə fəxr edirik. İrsimizi qoruyub saxlayırıq, amma dünyəvi ölkəyik. Biz Avropa İnsan Hüquqları Konvensiyasını imzalamışıq. İnsan hüquqları, demokratiya, qanunun aliliyi kimi ümumi dəyərləri daha yaxşı anlamaq məqsədilə dəfələrlə Avropa Şurası və İslam Əməkdaşlıq Təşkilatının birgə komissiyasını təşkil etməyi tövsiyə etmişik.

S.Seyidov vurğulayıb ki, İslam Əməkdaşlıq Təşkilatı ilə əlaqəsi olan ölkələrə qarşı müəyyən cəza ideyalarından danışmaq əməkdaşlıq yolu deyil. Dialoq yaratmaq bu təşkilatda eyni dəyərləri bölüşən ölkələrlə qarşıdurma yaratmaqdan daha yaxşı olar. Nümayəndə heyətinin rəhbəri əməkdaşlığın tərəfdarı olduğunu vurğulayıb.

# Səhiyyə naziri İmişlidə vətəndaşları qəbul edib

Prezident İlham Əliyevin tapşırığına əsasən, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu keçirir, onların müxtəlif məsələlərlə bağlı müraciətlərinin həllinə köməklik göstərirlər.

Növbəti belə qəbul yanvarın 23-də səhiyyə naziri Oqtay Şirəliyev tərəfindən İmişli Mərkəzi Rayon Xəstəxanasında keçirilib.

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, qəbul zamanı nazir Oqtay Şirəliyev İmişli, Beyləqan, Saatlı və Sabirabaddan olan vətəndaşların sağlamlıq problemləri, işlə təminat və s. məsələlərlə bağlı müra ciətlərini dinləyib. Vətəndaş müraciətlərində qaldırılan məsələlər nazirliyin müvafiq qurumlarının əməkdaşlarının iştirakı ilə araşdırılıb. Müraciətlərin bəziləri yerindəcə həllini tapıb.

Nazirliyin səlahiyyətlərinə aid olmayan məsələlər aidiyyəti üzrə çatdırılması üçün qeydiyyata alınaraq nəzarətə götürülüb.

# 2018 - İNKİŞAF və İSLAHATLAR İLİ



# 25-ci dəfə eyni ünvanda

## 2018-ci ilin Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin və "Cənub qaz dəhlizi"nin açılış mərasimləri eyni günə təsadüf etdi

2018-ci ildə Azərbaycanın evsahibliyi etdiyi möhtəşəm tədbirlər sırasında 25-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi özünəməxsus yer tutdu. Bu tədbirin özəlliyi ondadır ki, artıq ənənəyə çevrilib və hər il iyun ayının əvvəlində Bakı şəhərində keçirilir. Budəfəki sərgi mayın 29-u - iyunun 1-i tarixlərinə təsadüf etdi. Son illərdə olduğu kimi, sərgi ilə yanaşı, eyniadlı konfrans da oldu.

25-ci yubiley sərgi-konfransı başlanan gün Bakı yaxınlığındakı Səngəçal terminalında "Cənub qaz dəhlizi"nin rəsmi açılış mərasimi də keçirildi. Prezident İlham Əliyev Səngəçaldakı nitqində bu iki mühüm hadisənin eyni gündə olmasını belə dəyərləndirdi: "Səngəçal terminalı dünyanın ən böyük neft-qaz terminalıdır və məhz burada dörd il bundan əvvəl "Cənub qaz dəhlizi"nin təməli qoyulmuşdur. Eyni zamanda, onu da qeyd etməliyəm ki, bu gün Bakı Ekspo Mərkəzində XXV Xəzər Neft-Qaz Sərgisi öz işinə başlayıb və sərgidə iştirak edən yoldaşlar bu gün bu mərasimdə də iştirak etmiş kimi sayıla bilərlər... Xəzər neft-qaz sərgisinin Azərbaycanın enerji siyasətinin reallaşmasında çox böyük rolu olmuşdur. İlk sərgi 1994-cü ildə keçirilmişdir. O vaxt Azərbaycan gənc müstəqil dövlət idi və riskli dövlət kimi sayılırdı. Bu sərginin Azərbaycana investisiya qoyuluşu üçün çox önəmli rolu olmuşdur. Ötən 25 il ərzində bu sərgi dünya miqyasında çox mötəbər sərgi kimi tanınır və sərgidə iştirak edən şirkətlərin, ölkələrin sayı getdikcə artmaqdadır".

Xatırladaq ki, "Caspian Oil and Gas" Azərbaycanın ilk ixtisaslaşdırılmış sərgisidir. Birinci sərgi 1994-cü ilin may ayında Bakıda ulu öndər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə keçirilib. Həmin vaxtdan etibarən tədbir neft, qaz və energetika sahəsinin aparıcı mütəxəssislərinin görüşdüyü, memorandumların, eləcə də gələcək əməkdaşlığa dair saziş və müqavilələrin imzalandığı meydana çevrilib. Ötən illər ərzində sərgidə dünyanın 70-dən çox ölkəsini təmsil edən 7500-dən artıq şirkət iştirak edib.

Hər il sərginin açılış mərasimində Prezident İlham Əliyevin iştirak və çıxış etməsi tədbirin əhəmiyyətini göstərən önəmli faktdır. 2018-ci il mayın 29-da da dövlət başçısı "Cənub qaz dəhlizi"nin rəsmi açılış mərasimindən sonra Bakı Ekspo Mərkəzinə gəlib sərgi ilə də tanış oldu və iştirakçılarla səmimi söhbət etdi.

Hər dəfə Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin açılışı münasibətilə Prezident İlham Əliyevə bir sıra böyük dövlətlərin başçıları, nüfuzlu beynəlxalq təşkilatların rəhbərləri tərəfindən təbrik məktublarının göndərilməsi də bu tədbirin dünyada necə böyük əhəmiyyətə malik olduğunu təsdiqləyir. 25-ci yubiley sərgisi ilə bağlı da təbrik məktubları gəldi. Onlardan birində - Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın məktubunda deyilirdi:

"Hörmətli cənab Prezident!

Sizi və Azərbaycan xalqını Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin 25 illiyi və "Cənub qaz dəhlizi"nə ilk qazın verilməsi münasibətilə təbrik edirəm. Azərbaycanla Amerika Birləşmiş Ştatları arasında 30 illik əməkdaşlığın bu mühüm nailiyyətini Sizinlə birlikdə qeyd edirəm.

İlk müstəqil dövlətinin 100 illiyini qeyd edən Azərbaycan indi daha firavan və qlobal iqtisadiyyata bağlı bir ölkədir. Azərbaycanın böyük neft yataqları dünya enerji bazarına sabitlik gətirir. Sizin qaz hasilatınız isə Türkiyə və Avropanın enerji təhlükəsizliyinin təmin edilməsinə töhfə verəcəkdir.

Enerji layihələrinizin uğurunu möhkəmləndirəcək iqtisadi və hüquqi islahatları davam etdirməyinizi dəstəkləyirəm. Böyük dövlətlərimizin və Qafqaz regionunun daha firavan, dinc və təhlükəsiz olması naminə Sizinlə əməkdaşlıq etmək əzmindəyəm".

25-ci Xəzər Neft və Qaz Sərgisi də məhz Azərbaycanın son illərdə yaratdığı mükəmməl beynəlxalq əməkdaşlıq və tərəfdaşlıq formatına yeni bir töhfə oldu. Belə ki, tədbirdə onlarca ölkənin neft-qaz mütəxəssisləri yenidən bir araya gəldilər.

Sərgidə dünyanın neft-qaz yataqlarının mənimsənilməsi və işlənməsi ilə məşğul olan, həmçinin servis xidmətləri göstərən 310-dan çox şirkəti iştirak etdi. 38 ölkəni təmsil edən bu şirkətlərin bir çoxu milli qruplar şəklində fəaliyyət göstərirdi. Bunlardan Belarus, İtaliya, Rusiya və digər ölkələrin milli qrupları sərgi boyu öz nailiyyətləri ilə diqqəti cəlb etdi. Sərginin tərkibi tədbir iştirakçılarının 20 faizini təşkil edən yeni şirkətlər sayəsində daha da genişlənmişdi. Tədbirdə ilk dəfə iştirak edənlərin əksəriyyəti Azərbaycanın neft və qaz bazarına böyük maraq göstərən xarici şirkətlər idi.

"Caspian Oil and Gas"ın konfransında isə 500-dən çox şirkət rəhbəri, sənaye nazirliklərinin nümayəndələri, beynəlxalq və yerli ekspertlər iştirak etdilər. Konfransda son 25 ildə Xəzər dənizinin Azərbaycan sektorunda həyata keçirilən neft-qaz əməliyyatları, yatırılan investisiyalar, ixrac imkanları, geoloji kəşfiyyat və digər mövzular müzakirə olundu.

Bütün bunlardan əlavə, 2018-ci ildə 8-ci dəfə "Caspian Oil and Gas"la yanaşı, Xəzər Beynəlxalq Energetika və Alternativ Enerji Sərgisi də keçirildi.

"Caspian Oil and Gas-2018"-in özəlliyi həm də yubiley sərgisi olmasında və ona baş sponsorluğu Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin - SOCAR-ın etməsində idi. Başqa sözlə, Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi son 25 ildə xarici şirkətlərlə yataqların kəşfiyyatı, işlənməsi və bərpası istiqamətində 35 saziş imzalayan, investisiya yönəldilən ölkədən sərmayə qoyan ölkəyə çevrilən Azərbaycanın nailiyyətlərinin daha bir nümayişinə çevrildi. Bu tədbirin əhəmiyyətini təsdiqləyən iştirakçılar növbəti, 26-cı "Caspian Oil and Gas"ın da Bakıda keçirilməsinə qərar verdilər.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

QEYRİ-NEFT SƏNAYE MƏHSULLARI



***Ötən il ölkə üzrə 47,7 milyard manatlıq və ya əvvəlki illə müqayisədə 1,5 faiz çox sənaye məhsulları istehsal edilmişdir. Sənayenin qeyri-neft sektorunda məhsul istehsalı 9,1, neft sektorunda 0,4 faiz artmışdır.***

# İstehsal 9 faizdən çox artıb

Sənaye məhsullarının 73 faizi mədənçıxarma, 22,2 faizi emal, 4,1 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,7 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal olunmuşdur. Mədənçıxarma sektorunda əmtəəlik qaz hasilatı 5,8 faiz artmışdır. Neft hasilatı isə ötən ilin səviyyəsində qalmışdır.

Emal sektorunda avtomobil, qoşqu və yarımqoşquların istehsalı 31, tütün məmulatlarının istehsalı 2,7, elektrik avadanlıqlarının istehsalı 2,5, mebel istehsalı 2,1 dəfə, poliqrafiya məhsullarının istehsalı 82,1, toxuculuq sənayesi məhsullarının istehsalı 42,4, tikinti materiallarının istehsalı 26,3, dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı 23,3, rezin və plastik kütlə məmulatlarının istehsalı 14, içkilərin istehsalı 12,2, metallurgiya sənayesi məhsullarının istehsalı 11,4, ağacın emalı və ağacdan məmulatların istehsalı 9,5, kimya sənayesi məhsullarının istehsalı 1,4, kağız və karton istehsalı 0,5 faiz artmışdır. Kompüter, elektron və optik məhsulların istehsalı 2,5, maşın və avadanlıqların quraşdırılması və təmiri işləri 14,7, əczaçılıq məhsullarının istehsalı 15,1, maşın və avadanlıqların istehsalı 19,1, hazır metal məmulatlarının istehsalı 27,4, digər nəqliyyat vasitələrinin istehsalı 67,3 faiz azalmışdır.

Məlumatı Dövlət Statistika Komitəsi yaymışdır.

XARİCİ TİCARƏT

# 8,6 milyard dollarlıq müsbət saldo



**Dövlət Statistika Komitəsi ölkənin xarici ticarət əlaqələri barədə son məlumatı açıqlayıb. Bildirilir ki, ötən ilin yanvar-noyabr aylarında Azərbaycan dünyanın 182 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirmişdir. 109 ölkəyə məhsul ixrac, 173 ölkədən idxal olunmuşdur.**

Gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla bu müddət ərzində ölkənin xarici ticarət dövriyyəsi 29 milyard 224 milyon, o cümlədən ixracın dəyəri 18 milyard 928,5 milyon, idxalın dəyəri 10 milyard 295,5 milyon dollar təşkil etmiş, nəticədə 8 milyard 633 milyon dollarlıq müsbət ticarət saldosu yaranmışdır. 2017-ci ilin yanvar-noyabr ayları ilə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 34,6, o cümlədən ixrac 35,9, idxal 32,1, real ifadədə isə dövriyyə 1,1, o cümlədən ixrac 1, idxal 1,2 faiz artmışdır.

İxracın 31 faizini İtaliya, 8,7 faizini Türkiyə, 6,2 faizini İsrail, 4,6 faizini Çexiya, 4,2 faizini Hindistan, 4,1 faizini Almaniya, 4 faizini Tayvan (Çinin əyaləti), 3,3 faizini Rusiya, 3,2 faizini Kanada, hər biri 3 faiz olmaqla İndoneziya və Portuqaliya, hər biri 2,5 faiz olmaqla Gürcüstan və Fransa, qalan 19,7 faizini isə digər ölkələrə göndərilmiş məhsulların dəyəri təşkil etmişdir.

Ölkəmizə idxal olunmuş məhsulların ümumi dəyərinin 16,2 faizi Rusiya, 14 faizi Türkiyə, 10,2 faizi Çin, 5,7 faizi Almaniya, 4,9 faizi İsveçrə, 4,6 faizi ABŞ. 4 faizi Ukrayna, 3,6 faizi İran, 3,5 faizi Yaponiya, 3 faizi İtaliya, 2,4 faizi Birləşmiş Krallıq, 27,9 faizi digər ölkələrlə aparılmış idxal əməliyyatlarının payına düşmüşdür.

Ötən ilin 11 ayı ərzində 1 milyard 531,7 milyon dollar dəyərində qeyri-neft məhsulları ixrac edilmişdir ki, bu da 2017-ci ilin yanvar-noyabr aylarına nisbətən faktiki qiymətlərlə 10,5, real ifadədə 1,4 faiz çoxdur. Konkret desək, 2017-ci ilin eyni dövrü ilə müqayisədə mühüm məhsul növlərindən təzə meyvə ixracı 21, təzə tərəvəz - 0,3, kartof - 15,5, bitki yağları - 10,8, meyvə və tərəvəz konservləri - 13,4, polietilen - 9,3, emal olunmamış alüminium - 12,2, qara metallardan borular - 4,7, pambıq ipliyi - 31 faiz, təbii üzüm şərabları və üzüm suslosu - 1,8, pambıq lifi - 2,5 dəfə artmışdır.

İdxala gəldikdə, hesabat dövründə buğda idxalı 11,5, bitki yağları - 10,7, xam şəkər və şəkər - 34,3, kərə yağı, digər süd yağları və pastaları - 14,4, kartof - 9,1, mal əti - 12,5, təzə tərəvəz - 43,4, polad prokatı - 9,8, rezin şinlər - 8,6 faiz azalmışdır ki, bu da ilk növbədə daxili tələbatın yerli istehsal hesabına ödənilməsi sayəsində mümkün olmuşdur.

DƏF OLUNMUŞ HƏDƏFLƏR

# 2 min kilometr yol, əlavə 100 min hektar suvarılan sahə, 95 faiz qazlaşdırma

Son zamanlar ölkəmizdə istər beynəlxalq, istərsə də yerli əhəmiyyətli mühüm infrastruktur layihələri icra edilir. Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında həyata keçirilən bu cür layihələri yüksək qiymətləndirərək demişdir:



"Bu il infrastrukturla bağlı bir çox önəmli layihələr icra ediləcək. Biz son illər ərzində infrastrukturun yaradılması ilə çox ciddi məşğul olmuşuq. Təsadüfi deyil ki, Davos Ümumdünya İqtisadi Forumunun hesablamalarına görə, Azərbaycan infrastrukturun inkişafı üzrə qabaqcıl yerdədir, 30-cu yerdədir".

Bu sözləri təsdiqləyən konkret faktlara nəzər salaq: təkcə keçən il Azərbaycanda 2 min kilometr avtomobil yolu salınıb. Ümumilikdə isə 2004-cü ildən bu günə qədər ölkə üzrə 15 min kilometr avtomobil yolu çəkilib. Bu yollar təkcə iqtisadi məqsədlərə xidmət etmir, həm də sosial mahiyyət daşıyır. Belə ki, keçən il avtomobil yolunun çəkilməsi sayəsində 920 kəndin yol infrastrukturu yaxşılaşıb ki, bu da 2,2 milyon insanın sosial rifahına xidmət edir.

Dövlət başçısının qeyd etdiyi kimi, rahat yol olan yerdə kənd təsərrüfatının inkişafı sürətlənir, sosial məsələlər öz həllini tapır. İnsanlar istədikləri yerə vaxtında və rahat gedib-gələ bilirlər. Onu da qeyd edək ki, cari ildə də bu proses davam etdirilərək ən azı 1000 kilometr yol salınacaq.

Bu il, həmçinin beynəlxalq əhəmiyyətli yolların tikintisi davam edəcək. İlk növbədə Astaradan İran sərhədinədək yeni dördzolaqlı yolun çəkilməsi planlaşdırılır. Bununla yanaşı, cari ildə Sumqayıt-Rusiya sərhədi yolunun tikintisi davam etdiriləcək. Beləliklə, ölkəmizin Azərbaycandan Rusiya sərhədinədək iki rahat yolu olacaq və nəticədə həm nəqliyyat sıxlığı, həm də təhlükəsizlik təmin ediləcək. Eyni zamanda yarımçıq qalmış Bakı-Gürcüstan sərhəd yolu, yəni Gəncədən qonşu ölkənin sərhədinə kimi ikizolaqlı yolun dördzolaqlıya çevrilməsi istiqamətində işlər davam etdiriləcək.

Ölkəmizdə mükəmməl infrastruktur layihələrinin həyata keçirildiyi sahələrdən biri də meliorasiyadır. Ötən il görülən meliorativ tədbirlər sayəsində əlavə 100 min hektar torpağa su verilib. Bu torpaqlardan 40 min hektarına heç vaxt su vermirdi. Artıq bu torpaqlar fasiləsiz su ilə təmin olunur. Cari ildə isə əlavə 80 min hektara suyun verilməsi üçün meliorativ tədbirlər görüləcək. Bu il habelə 300 subartezian quyusunun qazılması nəzərdə tutulur.

Mavi yanacaqdan istifadəyə gəldikdə, keçən il bu sahədə də xeyli işlər görülüb. Bu gün ölkənin qazlaşdırılmasının 95 faizə çatması məhz həmin işlərin nəticəsidir. Cari ilin hədəfi isə ölkənin təbii qazla tam təmin edilməsinə nail olmaqdır.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

İNVESTİSİYA

# Qeyri-neft sektoruna qoyulan sərmayə 22 faiz çoxalmışdır

2018-ci ildə ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 17 milyard 238,2 milyon manat vəsait yönəldilmiş, sərf olunmuş vəsaitin 68 faizini bilavasitə tikinti-quraşdırma işlərinin dəyəri təşkil etmişdir.

Dövlət Statistika Komitəsinin məlumatına görə, ötən il neft sektoruna yatırılmış investisiyaların həcmi azalsa da, qeyri-neft sektoruna yönəldilmiş vəsaitin həcmi 22, o cümlədən qeyri-neft sənayesinə qoyulmuş investisiyalar 23 faiz artmışdır. Ümumi sərmayənin 67,6 faizi məhsul istehsalı və 24,8 faizi xidmət sahələrinin, 7,6 faizi isə ümumi sahəsi 2 milyon 84,7 min kvadratmetr olan yaşayış evlərinin tikintisinin payına düşmüşdür. Daxili mənbələrdən əsas kapitala yönəldilmiş vəsait ümumi sərmayənin 69,7 faizini təşkil etmişdir.

Əsas kapitala yönəldilmiş sərmayənin ümumi dəyərində müəssisə və təşkilatların vəsaitləri 52,7, bank kreditləri 11, büdcə vəsaitləri 25,8, əhalinin şəxsi vəsaitləri 8,2, büdcədənkənar fondların vəsaitləri 1,6, digər vəsaitlər 0,7 faiz olmuşdur.

ALIŞ-VERİŞ

# Pulumuz nəyə xərclənib



2018-ci ildə pərakəndə ticarət şəbəkəsində satılmış məhsulların dəyəri əvvəlki ilin səviyyəsini müqayisəli qiymətlərlə 3 faiz üstələyərək 37,1 milyard manata bərabər olmuşdur. Ticarət dövriyyəsinin 18,6 milyard manatını ərzaq məhsulları, içkilər və tütün məmulatları, 18,5 milyard manatını qeyri-ərzaq məhsulları təşkil etmiş və satılmış məhsulların dəyəri 2017-ci ilə nisbətən real ifadədə müvafiq olaraq 2,5 və 3,4 faiz artmışdır.

Keçən il alıcıların son istehlak məqsədilə aldıqları mallara xərclədikləri vəsaitin 45,8 faizi ərzaq məhsullarının, 4,5 faizi içkilər və tütün məmulatlarının, 17,8 faizi toxuculuq məhsulları, geyim və ayaqqabıların, 6,1 faizi elektrik malları və mebellərin, 5,9 faizi avtomobil yanacağının, 1,3 faizi əczaçılıq və tibbi malların, 0,7 faizi kompüterlər, telekommunikasiya avadanlıqları və çap məhsullarının, 17,9 faizi digər qeyri-ərzaq məhsullarının alınmasına sərf olunmuşdur.

Hesabat dövründə istehlak məhsullarının dəyər ifadəsində 16,8 faizi ticarət müəssisələri, 52,9 faizi fərdi sahibkarlar tərəfindən, 30,3 faizi isə bazar və yarmarkalarda satılmışdır. 2017-ci illə müqayisədə pərakəndə ticarət dövriyyəsi real ifadədə müəssisələr üzrə 33, fərdi sahibkarlar üzrə 0,1 faiz artmış, bazar və yarmarkalarda 4,2 faiz azalmışdır.

2018-ci ildə əhalinin bir nəfərinə düşən orta aylıq pərakəndə ticarət dövriyyəsi 314,8 manat və ya 2017-ci ilin müvafiq göstəricisindən nominal ifadədə 12,9 manat çox olmuşdur. Ticarət şəbəkəsində bir ölkə sakini orta hesabla hər ay 158,2 manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 156,6 manatlıq qeyri-ərzaq məhsulları almışdır.

# Dərs yükə çevriləndə

## Təhsil proqramının ağırlığından müəllimlər, şagirdlər, valideynlər də şikayətçidirlər, amma problemlər bununla bitmir...

**Müasirləşən dünyada yaşam şərtləri demək olar ki, hər gün dəyişir. Bütün sahələrdə ənənəvi dəyərlər yeniləri ilə əvəz olunur və artıq bu, zamanın tələbinə çevrilib. Dəyişən şərtlərə uyğun tədris prosesi də təkmilləşmək məcburiyyətindədir. Bu gün inkişaf etmiş ölkələrin təhsil sistemində şagirdlərin psixoloji inkişafı, dünyagörüşü, tədrisin daha kreativ, modern, əyləncəli üsullarla aparılması əsas sayılır. Təhsilin inkişafı, yeni təlim metodlarının tətbiqi, nəticəyönümlü tədrisə maraq və şəxsiyyət yetişdirilməsi kimi mühüm strateji amillər ilk yerdə durur.**



**İsa HƏBİBBƏYLİ:**

- Hazırlanmış tədris proqramlarında tələskənliyə yol verilmişdir. Təhsil proqramları və buna uyğun olaraq dərsliklər yeniləşdirilməli və sadələşdirilməlidir. Azərbaycançılıq baxımından da təhsil proqramları və dərsliklər müasir tələblərə heç də tam cavab vermir. Hazırda Təhsil Nazirliyində təhsil proqramlarının sadələşdirilməsi və millilik zəminində yeniləşdirilməsi istiqamətində iş aparılır. Təhsil sistemində sınaqlardan çıxmış davamlı ənənələrdən də yaradıcı şəkildə istifadə olunması unudulmamalıdır. Yeniləşmə ilə ənənəvi tədris üsullarının ortaq balansı tapılmalıdır. Ultra yenilikçilik lazımi səmərə vermir.



**Məhəbbət VƏLİYEVA:**

- Müəllimlər şagirdə fərdi yanaşmalıdır, onların maraq dairələrini öyrənib, tədris prosesini hər birinin ehtiyacına uyğun qurmalıdır. Bunun üçün müəllimdən əlavə vaxt, öz üzərində işləmək, yaradıcılıq, öz peşəsinə vurğunluq tələb edilir. Amma təəssüf ki, heç də bütün müəllimlərimiz peşəsinin vurğunu deyil. Belə olduqda müəllimlər şagirdin nəticə əldə etməsinin yeganə yolunu onu yükləməkdə görürlər. Düşünürlər ki, şagird çox yazarsa, eyni tapşırığı bir neçə dəfə yerinə yetirərsə, onda vərdiş formalaşdıracaq və biliyi möhkəmlənəcək. Amma bu, yanlış yoldur. Şagirdin öyrənmə prosesini maraqlı etmək üçün onun rəngarəngliyinə çalışmaq lazımdır.



**Bəxtiyar ƏLİYEV:**

- Dərsliklər şagirdin psixi inkişaf səviyyəsinə uyğun tərtib olunmalı, onların müstəqil və tənqidi düşünmək qabiliyyətini inkişaf etdirməlidir. Biz burada çox informasiya vermək yox, müstəqil düşünmə, qərar qəbul etmə və tənqidi yanaşmanı nəzərdə tuturuq. Belə olduqda həmin şagirdlər müstəqil surətdə materialları oxuya, mənimsəyə və tədqiq edə bilərlər. Bəzən isə, informasiya ötürülür, məsələn kifayət qədər informasiya var, amma şagirdlər onu qəbul edə, bu bacarıq vərdişinə yiyələnə bilmirlər. Çünki, tənqidi və müstəqil düşüncə yoxdur.




**Şəmil SADİQ:**

- Şagird qrammatikanı mənimsəyib, düzgün və səlis danışmırsa, tarixi faktları əzbərləyib millətini tanımırsa, biologiyadan beş alıb bir dostunun qolu çıxdığı zaman ona ilk tibbi yardım göstərmək bacarığı yoxdursa, fizikanın düsturlarını, təriflərini öyrənib bir məftili o birinə bağlaya bilmirsə, riyazi düsturu əzbərləyib, ailə büdcəsini idarə etməyə qadir deyilsə, bütün şair və yazıçılarımızın həyat və yaradıcılığını öyrənib, insani dəyərlərə hörmət etmirsə, sevməyi, sevilməyi bacarmırsa, ünsiyyət problemindən əziyyət çəkirsə, o insan ölkəyə necə yaxşı vətəndaş olacaq?".

Məsələn, uşaqlar müasir üsullarla bağça və ibtidai siniflərdə əyləncəli zəka oyunları oynayır və yaşa uyğun bilikləri zövq alaraq öyrənirlər. Riyaziyyat və digər dəqiq elmlərdə mücərrəd anlayışları öyrətməyin ən səmərəli yolunun musiqi, dram, ya da idman olduğu düşünülür. Əslində, elmi və elmi olmayan öyrənmə üsulları arasında qurulan bu tarazlıq uşaqların daha yaxşı bilik əldə etməsinə və tətbiq edə bilməsinə yardımçı olur.

Bəs hazırda Azərbaycanda orta təhsil sistemi növbəti pilləyə, özü də inkişaf etmiş ölkələrin ali təhsil proqramına adekvatdırmı? Orta məktəblərdə tədrisin üsul və metodlarına yanaşma tərzində yeniliklər tətbiq olunurmu? Bu istiqamətdə olan çatışmazlıqlar nələrdir? Yeni hazırlanan "Ümumi təhsil haqqında" qanun layihəsində tədrisin modernləşdirilməsi ilə bağlı hansı məsələlər öz əksini tapıb? Bu və buna bənzər suallara təhsil mütəxəssisləri ilə aydınlıq gətirməyə çalışmışıq.

### Nəticələrin əldə olunması müəllimin hazırlıq səviyyəsindən asılıdır

*İlk həmsöhbətimiz 21 yaşından müəllimlik fəaliyyətinə başlayan və ömrünün 50 ilə yaxın bir dövrünü pedaqoji fəaliyyətə həsr etmiş Milli Məclisin Elm və təhsil komitəsinin sədri, AMEA-nın vitse-prezidenti, akademik **İsa Həbibbəyli**dir.*

Ali qanunverici orqan tərəfindən məhz bu yöndə mühüm sənədlərin qəbul olunmasında əhəmiyyətli rolu olan və yüksək pedaqoji təcrübəyə sahib akademik bu sahədəki problemlərə və çatışmazlıqlara dərindən bələddir.

İsa Həbibbəyli deyir ki, Azərbaycan təhsil sistemi son illərdə daha da yeniləşmiş və təkmilləşdirilmişdir. Bu nailiyyətlərin başlıca səbəbi Prezident İlham Əliyevin uğurla həyata keçirdiyi dövlət quruculuğu siyasətində elm və təhsilin inkişaf etdirilməsi məsələsinin mühüm yer tutmasıdır. "Təhsil haqqında" qanun və həmin qanuna son vaxtlar edilmiş dəyişikliklər ölkədə təhsilin bütün pillələrinin inkişaf etdirilməsinə stimul verir: " Dövlət səviyyəsində qəbul edilmiş "Milli təhsil strategiyası" ölkəmizdə təhsilin yeni hədəflərə doğru istiqamətləndirilməsi üçün meydan açır. Son illərdə Milli Məclisdə qəbul edilmiş "Məktəbəqədər təhsil" və "Peşə təhsili haqqında" qanunlar təhsilin bu pillələrinin dünya təcrübəsi və ölkə reallıqları əsasında yenidən qurulmasına təkan verib".

Hazırda Milli Məclisdə müzakirə prosesində olan "Ümumi təhsil haqqında" qanun layihəsində orta məktəblərin inkişafı ilə əlaqədar əhəmiyyətli müddəalar olduğunu söyləyən İsa Həbibbəyli deyir ki, Təhsil Nazirliyinin təqdim etdiyi və hər il geniş ictimaiyyətlə birlikdə müzakirəsini keçirdiyi illik hesabatlar bu sahədəki dinamik inkişafı ardıcıl olaraq izləməyə imkan verir. Haqqında bəhs olunan qanunvericilik sənədləri və təhsilin idarə olunmasının baş qərargahı olan Təhsil Nazirliyinin həyata keçirdiyi islahatlar, akademikin fikrincə, məktəb-müəllim-şagird-valideyn münasibətlərini normal məcrada inkişaf etdirməyə bələdçilik edir: "Hazırda tədris prosesində innovativ imkanlardan geniş istifadə olunur, şəxsiyyətin inkişafına və keyfiyyətə əsaslanan təlimə üstünlük verilir. Bu istiqamətdə nəticələrin əldə olunması isə müəllimin hazırlıq səviyyəsindən və pedaqoji-metodiki bacarıqlarından asılıdır".

### Proqram yeniləşməli və sadələşdirilməlidir

İsa Həbibbəyli də təsdiq edir ki, təhsil proqramlarının ağırlığından müəllimlər, valideynlər, şagirdlər, hər biri şikayət edir və bu halda təhsil proqramları məsələsinə, kurikulumlara yenidən qayıtmağa ciddi ehtiyac var: "Etiraf etmək lazımdır ki, müstəqilliyin başlanğıc illərində və bir qədər sonra hazırlanmış tədris proqramlarında tələskənliyə yol verilmişdir. Təhsil proqramları və buna uyğun olaraq dərsliklər yeniləşdirilməli və sadələşdirilməlidir. Azərbaycançılıq baxımından da təhsil proqramları və dərsliklər müasir tələblərə heç də tam cavab vermir. Yaxşı cəhətdir ki, hazırda Təhsil Nazirliyində təhsil proqramlarının sadələşdirilməsi və millilik zəminində yeniləşdirilməsi istiqamətində iş aparılır. Yaxşı olar ki, yeni hazırlanmış proqramlar geniş təhsil ictimaiyyətinin müzakirəsinə verilsin. Biz həmin yeniləşdirilmiş proqramları və dərslikləri Təhsil Nazirliyi ilə birlikdə Milli Məclisin Elm və təhsil komitəsində deputatların iştirakı ilə müzakirə etməyi faydalı hesab edirik və buna hazırıq".

### Sinif otağında bağçadakından daha çox oyuncaq var idi...

İsa Həbibbəylinin fikrincə, "əzbərləmək bilik qazanmaq deyil və əzbər öyrənilən nə varsa, bir vaxtdan sonra yaddaşlardan silinib gedir, dünyagörüşünə çevrilə bilmir". Akademik həmçinin qeyd edir ki, dərsdə öyrədilənləri əzbərlətmək yox, dərk olunmuş şəkildə mənimsətmək lazımdır. Tələbkarlıq adı altında yaradılan psixoloji gərginlik şüurlu dərkolunma prosesinə mane olur. Məktəbdə, dərslərdə şagird özünü sərbəst və rahat hiss etməli, diqqətini bilik öyrənməyə yönəltməlidir. Dərk olunmuş təlim şagirdi həm də həyata hazırlayır: "Əlbəttə, dünyada yaş səviyyəsindən asılı olaraq tədris prosesində müxtəlif vasitələrdən istifadə edilir. İbtidai siniflərdə əyləncəli üsullardan istifadə etmək fayda verə bilər. Məsələn, 2005-ci ildə Amerika Birləşmiş Ştatlarında Çikaqo yaxınlığındakı Oyk-Park məktəbində Nobel mükafatı laureatı, yazıçı Ernest Hemenqueyin vaxtilə birinci sinifdə oxuduğu sinif otağına baxmağa getmişdim. Sinif otağında bizim bağçalarda olduğundan da çox oyuncaqlar var idi. Öyrəndim ki, şagirdlər sinifdən-sinfə keçdikcə oyuncaqların sayı azaldılır və onları digər texniki vasitələr, məsələn, kompüterlər əvəz edir. Fikrimcə, yuxarı siniflərdə əyləncəli tədris üsulu fayda verə bilməz. Bu yaş həddi üçün dialoq, müqayisə, təhlil üsulları daha məqbul sayıla bilər".

Akademik onu da diqqətə çatdırır ki, təhsildə yeni üsul və vasitələrdən istifadə etmədən müasir səviyyəyə gəlib çatmaq mümkün deyil. Müəllim daim tədris üçün yeni üsul və vasitələrin sorağında olmalıdır: " Bununla belə, təhsil sistemində sınaqlardan çıxmış davamlı ənənələrdən də yaradıcı şəkildə istifadə olunması unudulmamalıdır. Yeniləşmə ilə ənənəvi tədris üsullarının ortaq balansı tapılmalıdır. Ultra yenilikçilik lazımi səmərə vermir".

### Orta təhsil pilləsində sistemli islahatlar aparılacaq

"Ümumi təhsil haqqında" yeni qanun layihəsi artıq parlamentdə birinci oxunuşdan keçib. Qanun layihəsində yuxarıda sadalanan məsələlərin hansı formada əksini tapmasına aydınlıq gətirən Milli Məclisin Elm və təhsil komitəsinin sədri məlumat verir ki, yeni sənəd bu istiqamətdə ölkəmizdə aparılan təhsil siyasətini, məktəbin idarə olunmasını və tədrisin təşkili ilə əlaqədar məsələləri özündə əks etdirir: "Burada dövlət ümumi təhsil müəssisələri ilə yanaşı, özəl təhsilin və bələdiyyə təhsilinin də fəaliyyətini tənzimləyən müddəalar var.

Həmçinin qanun layihəsində təqvim ilinin sonuna qədər 6 yaşı tamam olanların birinci sinfə qəbul edilməsi, 5 yaşından məktəbəhazırlıq qruplarının təşkili, X-XI siniflər üçün tədrisin təmayüllü qruplarda aparılması, məktəblərə yerləşdiyi ərazi prinsipinə görə şagird qəbulunun aparılması, vahid geyimin tətbiqi və digər məsələlər ilk dəfə olaraq öz əksini tapıb."

İsa Həbibbəyli hesab edir ki, "Ümumi təhsil haqqında" qanunun qəbul edilməsi ilə tam orta təhsil pilləsində sistemli islahatlar aparılacaq və əhəmiyyətli nəticələr əldə olunacaq.

### Təhsilin məzmunu, bu günü və gələcəyi

*Keyfiyyətli tədris təhsil verənin bilik və bacarığını necə tətbiq etməsi ilə birbaşa bağlıdır. Bu sahədəki üstün təcrübəsi sayəsində sadə müəllimlikdən ən yüksək postlardan birinə qədər yüksələn - təhsil nazirinin müavini, psixologiya üzrə fəlsəfə doktoru **Məhəbbət Vəliyeva** təhsilin məzmunu, bu günü və gələcəyi ilə bağlı atılacaq addımlardan məlumat verir.*

Məhəbbət Vəliyeva bildirir ki, Azərbaycan Respublikası Prezidetinin sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət strategiyası"nda müəyyən olunmuş istiqamətlər üzrə ciddi islahatlar aparılır. Təhsil alanlarda yeni məzmunlu səriştənin formalaşdırılması, müəllimlərin peşəkarlıq səviyyəsinin artırılması, məktəblərin maddi-texniki bazasının, infrastrukturunun yenilənməsi, müasir tələblər baxımından təhsil müəssisələrinin idarə olunması, maliyyə sisteminin təkmilləşdirilməsi həyata keçirilir: "Bu gün səriştə əsaslı məzmuna sahib olan hər bir təhsil alan, nəinki nəzəri biliklərlə silahlanmış olmalı, eyni zamanda, onu təcrübədə, həyatda tətbiq etməyi bacarmalıdır. Bu mənada əsas baza hissəni saxlamaqla, təhsilə dünyada sınanılan elmi yenilikləri, rəqəmsal bacarıqları, innovasiyanı tətbiq etməliyik. Hazırda beynəlxalq təcrübəni öyrənib, yerli kontingentə tətbiq etmək Təhsil Nazirliyi qarşısında duran ən zəruri vəzifələrdən biridir".

### Prioritet vəzifə: müasir təhsil verənlərin hazırlanması

Nazir müavini qeyd edir ki, bu gün şagirdlərimizin beynəlxalq elmi yarışlarda daha yaxşı nəticələr əldə etməsi təhsilimizin inkişaf etdiyini göstərir, amma bu o demək deyil ki, hər şeyə nail olunub: "Başa düşürük ki, biz inkişaf etdikcə, inkişaf etmiş ölkələrin təhsil sistemi daha irəli gedir və onlara çatmağa çalışırıq. Bu mənada yeniliklərə daha çox sürətlə yiyələnmək vasitələrindən biri, təhsil sahəsində texnologiyaların tətbiqidir. Son illər məktəblərimizdə yaradılan yeni şərait, infrastruktur, İKT avadanlıqları ilə təchizat işi xeyli yaxşılaşır, amma bununla yanaşı, bütün bu yeniliklərdən istifadə etməyi, onu gündəlik həyatda tətbiq etməyi bacaran təhsil verənlərə və onların hazırlığına ehtiyac var. Qarşıda duran prioritet vəzifələrdən biri də məhz müasir təhsil verənlərin hazırlanmasıdır".

Təhsil prosesini uşaqlar üçün maraqlı və əhəmiyyətli etməyin yollarından birinin də texnologiyadan bacarıqla istifadə etmək olduğunu söyləyən Məhəbbət Vəliyeva deyir ki, məlumat bolluğu olan dövrdə, heç bir İKT avadanlığı istifadə etmədən, quru dərs keçməklə şagirddə maraq yaratmaq mümkün deyil: "Bugünkü gənclər texnologiyanın ən geniş istifadəçisidir və buna maraq göstərirlər. Bunlar şagird üçün bir öyrənmə vasitəsi olmalıdır. Müəllim məzmunu düşünüb, İKT tətbiq etməklə şagirdlərə ötürməlidir. Artıq bu ilin sentyabr ayından etibarən məktəblərimizdə yeni innovativ yanaşmaların tətbiqinə başlayacağıq. Bunun üçün pilot məktəblər müəyyənləşdiriləcək. Oradakı təcrübə sınaqdan keçdikdən sonra paralel olaraq ölkənin başqa məktəblərinə də ötürüləcək".

### Fərqli düşünən valideyn və şagirdlər...

Məhəbbət Vəliyeva məlumat verir ki, beynəlxalq təcrübədə şagirdlər məktəbdənkənar vaxtda tamamilə müasir və gələcəkdə onlara lazım olacaq bacarıqlara yiyələnirlər. Azərbaycanda da qabaqcıl məktəblərdə təhsil alan şagirdlər dərslərlə yanaşı, beynəlxalq olimpiadalara, idman, yaradıcılıq müsabiqələrinə hazırlaşırlar. Və bilirlər ki, bu bacarıqlara yiyələnmək onların gələcəkdə mütəxəssis kimi formalaşmasında, həyatda öz yerlərini tapmalarında böyük rol oynayır: "Təəssüf ki, fərqli düşünən valideyn və şagirdlər də var ki, onların əsas məqsədi yalnız ali məktəbə hazırlıqdır. Təhsil Nazirliyi olaraq hazırda məktəbin imkanlarından və resurslarından düzgün istifadə etməyin yollarını düşünürük. 11-ci sinfi bitirib həyata atılan gənc, nəzəri biliklərə malik olmasa belə, həyatda ona lazım olan bacarıqlara yiyələnməlidir. Amma bu bacarıqlar yalnız 45 dəqiqə dərs müddətində şagirddə formalaşdırıla bilməz. Bunun üçün dərsdən sonra müxtəlif fəaliyyətlərin mövcud olması lazımdır. Elə bu məqsədlə də nazir Ceyhun Bayramovun əmri ilə bu il məktəblərin reytinq göstəriciləri yalnız buraxılış imtahanlarının nəticəsinə əsasən deyil, o cümlədən də şagirdlərin olimpiadalarda, bilik yarışlarında, müsabiqələrdə iştirakı əsasında gətirilən uğurların ölçülməsi nəticəsində müəyyənləşəcək. Bu il ölkə üzrə müxtəlif yaş qruplarında olan şagirdlər idmanın 4 növü üzrə müsabiqələrdə iştirak edəcəklər. Həmçinin yaradıcılıq müsabiqələrinin, sərgilər, bədii qiraət, teatr tamaşalarının göstərilməsi nəzərdə tutulur. Bunlar şagirdlərin başqa imkanlarının da üzə çıxarılmasına kömək edəcək".

### Müəllim dərsə yaradıcı yanaşmırsa...

"Əgər müəllim dərsə yaradıcı yanaşmırsa, ona vacib, canlı bir proses kimi baxmırsa, o zaman dərs çox quru, sönük keçəcək və bu, uşaqda maraq yaratmayacaq, onda heç bir əqli proseslərin formalaşmasına kömək etməyəcək" - söyləyən nazir müavini vurğulayır ki, 21-ci əsrin vacib bacarıqları arasında, şagirdlərdə başqaları ilə ünsiyyət, vaxtında və düzgün qərar vermə, yeniliklərə açıq olma, texnologiyadan istifadə, müxtəlif mənbələrdən aldığı məlumatı mənimsəyib yenidən təqdim etmə bacarığı formalaşdırılmalıdır. Şagirddə tədqiqatçılıq bacarığı olmalıdır və o, sadəcə bir kitab, nağılla kifayətlənməməlidir ki, bunun üçün müəllimdən böyük yaradıcılıq tələb olunur.

### Dərs yükünün ağırlığından şikayət

Nazir müavini bildirir ki, dərs yükünün ağırlığından şikayət edən valideynlər var və onların arasında haqlı olanlar da mövcuddur. Təbii ki, dərs proqramının öhdəliklərini yerinə yetirmək lazımdır, amma proqramın tələblərini hansı müəllimin necə yerinə yetirməsi artıq fərdlərə aiddir. Çünki müəllim dərslikdəki tapşırığı anlaşılan dilə çevirməklə, dərsi yaradıcı qurmaqla, müxtəlif vasitələrdən istifadə etməklə şagirdə çatdırır və bununla da həm keyfiyyətə nail olur, həm də dərslikdən başqa alternativ öyrənmə üsullarını şagirdə təqdim edir. Nəticədə proses ona ağır və yüklü görünmür. İkinci qrup müəllimlər var ki, dərslikdə verilən materialla kifayətlənir və alternativ vasitələr axtarmır. Nə şagird yüklənir, nə də müəllim əlavə əziyyət çəkir, amma şagirdin hansı səviyyədə faydalanmasına gəldikdə, aydın məsələdir ki, bu, birinci ilə müqayisədə çox da yaxşı nümunə deyil. Üçüncü kateqoriya müəllimlər isə nəinki dərsliklə kifayətlənir, eyni zamanda, dərslikdən əlavə lazımsız resurslardan istifadə edir. Bəzən müəllim heç bir mənbədə məlum olmayan, müəllifi tanınmayan, etibarsız mənbələri sinifə gətirməklə şagirdlərin fəaliyyətini "genişləndirir", başqa tərəfdən də çoxsaylı ev tapşırıqları verməklə onları yükləyir. Bu da müəyyən uşaqlar üçün həm maraqsız, həm də yorucu görünür. Bəzən müşahidə edirik ki, sosial şəbəkələrdə hansısa mətndən bir parça qoyublar və böyük tənqid atəşinə tutulur ki, Təhsil Nazirliyi hara baxır? Günah həmin vəsaiti dərsdə tətbiq edən müəllimdədir".

### Öyrənmə prosesini rəngarəng etmək lazımdır

Əlavə tapşırıqlarla şagirdlərin yüklənməsi məsələsinə də aydınlıq gətirən Məhəbbət Vəliyeva söyləyir ki, birinci sinif şagirdinin yazı yazmaq bacarığı vacibdir: "Digər tərəfdən də rəqəmsal texnologiyanın tətbiqindən danışırıq və başa düşürük ki, orada xəttin gözəlliyi o qədər də önəmli deyil və bu mənada şagirdlərdə vacib bacarıqlar formalaşdırılmalıdır. Müəllimlər şagirdə fərdi yanaşmalıdır, onların maraq dairələrini öyrənib, tədris prosesini hər birinin ehtiyacına uyğun qurmalıdır. Bunun üçün müəllimdən əlavə vaxt, öz üzərində işləmək, yaradıcılıq, öz peşəsinə vurğunluq tələb edilir. Amma təəssüf ki, heç də bütün müəllimlərimiz peşəsinin vurğunu deyil. Belə olduqda müəllimlər şagirdin nəticə əldə etməsinin yeganə yolunu onu yükləməkdə görürlər. Düşünürlər ki, şagird çox yazarsa, eyni tapşırığı bir neçə dəfə yerinə yetirərsə, onda vərdiş formalaşdıracaq və biliyi möhkəmlənəcək. Amma bu, yanlış yoldur. Şagirdin öyrənmə prosesini maraqlı etmək üçün onun rəngarəngliyinə çalışmaq lazımdır".

*Ardı 6-cı səh.*

# Uşaqlar hər cür qayğıya layiqdirlər

İstər ümumtəhsil məktəblərinin, istərsə də məktəbəqədər uşaq tərbiyə müəssisələrinin yenidən qurulması istiqamətində görülən işlər böyük əhəmiyyətə malikdir. Çünki bu təlim-tərbiyə və təhsil ocaqları uşaqların intellektual, fiziki və psixoloji inkişafında, potensial imkanlarının üzə çıxarılmasında, onlarda müstəqil yaradıcılıq, təşəbbüskarlıq hisslərinin və həyati bacarıqlarının formalaşmasında mühüm rol oynayır.





Bu, bir həqiqətdir ki, maddi sərvətlərin insan kapitalına çevrilməsinin təməli məhz məktəbəqədər uşaq tərbiyə müəssisələrində və məktəblərdə qoyulur. Elə bu səbəbdən də ölkənin bütün regionlarında olduğu kimi, Ağstafa rayonunda da məsələyə diqqətlə yanaşılır. Təkcə onu demək kifayətdir ki, son 5 ildə rayonda onlarca uşaq bağçası, məktəb binası yenidən tikilmiş, yaxud əsaslı şəkildə təmir olunmuşdur. Özü də bu uşaq bağçaları və məktəblərin çoxu kənd və qəsəbələrdə yerləşir.

Ağstafa Rayon İcra Hakimiyyətində olarkən dedilər ki, hazırda rayonda 34 məktəbəqədər uşaq tərbiyə müəssisəsi və 39 orta məktəb fəaliyyət göstərir. 1425 nəfər uşağın tərbiyə aldığı bu bağçaların 5-i rayon mərkəzində, 29-u isə kəndlərdədir. Şəhərdə olan 5 bağçadan 2-si yeni tikilmiş, 2-si isə əsaslı şəkildə təmir olunmuşdur. Müasir standartlara cavab verən bu bağçalarda demək olar ki, ən yüksək şərait yaradılmışdır. Bağçaların bütün inventarları yenilənmiş, müasir istilik sistemləri, standartlara cavab verən mətbəx yaradılmış, uşaqların zövqunə uyğun təmir işləri aparılmışdır. Bütün bağçalarda su anbarı, açıq və qapalı idman meydançaları inşa edilmişdir. İndi demək olar ki, yenidən tikilərək istifadəyə verilmiş Ağstafa şəhər 1, 3 və 4 saylı, Aşağı Kəsəmən kənd körpələr evi-uşaq bağçalarında fidan balaların hərtərəfli inkişaf etdirilməsi üçün hər cür şərait var.

Əsaslı şəkildə təmir edilmiş məktəbəqədər uşaq tərbiyə müəssisələrinin sayında da xeyli artım olmuşdur. Son bir neçə ildə Ağstafa şəhər 2 saylı, Dağ Kəsəmən, Poylu, Göycəli, Tatlı kəndlərində fəaliyyət göstərən körpələr evi-uşaq bağçalarında yenidənqurma işləri ilə bərabər, əsaslı təmir işləri də görülmüşdür. Hazırda Dağ Kəsəmən kəndində daha bir körpələr evi-uşaq bağçasının inşası sürətlə davam etdirilir.

Rayonda ümumtəhsil məktəblərinin yenilənməsi istiqamətində də başlanan işlər uğurla davam etdirilir. Qeyd etmək lazımdır ki, son bir neçə ildə Ağstafada 17 yeni məktəb binası inşa edilərək istifadəyə verilmişdir. Yeni məktəb binalarının inşası ilə yanaşı, mövcud tədris ocaqlarının əsaslı şəkildə təmiri də diqqət mərkəzində saxlanılmışdır. Həyata keçirilən tədbirlər nəticəsində istifadəyə yararsız hala düşmüş 5 məktəb binası tamamilə yenidən qurulmuş, ən müasir tədris ocaqlarına çevrilmişdir.

Son 15 ildə ölkəmizdə 3 min 100-dən artıq yeni məktəb binası tikilmiş və ya əsaslı şəkildə təmir edilmişdir ki, bu da respublikamızda olan ümumi məktəblərin 70 faizini təşkil edir. Hazırda bu iş indi də uğurla davam etdirilir. Azərbaycan Prezidenti tərəfindən 2018-ci il üçün təsdiq edilmiş dövlət investisiya proqramına uyğun olaraq ölkə ərazisində quraşdırılan 137 modul tipli məktəbdən 2-si Ağstafa rayonunda - Ağgöl və Kolayır kəndlərində istifadəyə verilmişdir. Hazırda rayonun Həzi Aslanov qəsəbəsində 20 yerlik daha bir modul tipli məktəbin quraşdırılmasına başlanmışdır. 264 yerlik Böyük Kəsik kənd orta məktəbi üçün yeni binanın tikintisində də işlər sürətlə davam etdirilir. Rayonun Gürcüstanla həmsərhəd olan Sadıqlı kəndində isə yeni məktəb binasının tikintisinə hazırlıq işləri görülür.

***Sabir ƏLİYEV, "Azərbaycan"***

# Dərs yükə çevriləndə

## Təhsil proqramının ağırlığından müəllimlər, şagirdlər, valideynlər də şikayətçidirlər, amma problemlər bununla bitmir...

*Əvvəli 5-ci səh.*



### Savadsız müəllimi sistemdən kənarlaşdıranda...

Nazir müavini onu da diqqətə çatdırdı ki, müəllimlərin diaqnostik qiymətləndirilməsi zamanı məlum oldu ki, bu gün məktəblərimizdə öz ixtisasını 20-30 faiz bilən müəllimlər var. Bu müəllimlər zamanında, müxtəlif şəraitlərdə təhsil sisteminə daxil olub və indi də çalışırlar: "Qiymətləndirmədə aşağı nəticə göstərən müəllimlər üçün nazirlik əlavə olaraq ixtisasartırma təlimləri təşkil etdi və onlardan bəziləri öz nəticəsini həqiqətən, yaxşılaşdırdı. Elə müəllimlərimiz də var ki, bu gün öz ixtisasları üzrə 0-9 bal arası nəticə göstəriblər. Aralarında da eləələri var ki, bu yaşdan sonra onları yenidən hazırlamaq mümkün deyil. Bundan sonraki dövr sertifikatlaşdırma mərhələsidir ki, bu da həmin müəllimlərin öz üzərində ciddi çalışmasını tələb edir. Bundan bir ajiotaj, narahatçılıq da yaratmaq lazım deyil. Əlbəttə ki, heç bir valideyn istəməz ki onun övladına savadsız müəllim dərs desin. Bir savadsız müəllimi sistemdən kənarlaşdıranda da, o müəllim harasa şikayət edəndə də, hamı bunu anlayışla qəbul etməlidir".

### Uşaqların psixi inkişafla bağlı yaş dövrləri hökmən nəzərə alınmalıdır

O da həqiqətdir ki, təhsil sisteminin məqsədi gənc nəslə yalnız bu və ya digər fənnə aid biliklərin verilməsi deyil, həm də hərtərəfli şəxsiyyət yetişdirməkdir və burada da psixoloji məqamlara daha çox diqqət yetirilməlidir.

*Şəxsiyyətin formalaşması və inkişafı haqqında yeni konseptual model yaratmış, təlim prosesində mənimsəmənin effektivliyini artırmaq üçün öyrənmənin dərketmə modelini irəli sürmüş Milli Məclisin Elm və təhsil komitəsinin sədr müavini, AMEA-nın müxbir üzvü* ***Bəxtiyar Əliyev****ə bu istiqamətdə suallarımızı ünvanladıq.*

36 illik pedaqoji fəaliyyətlə məşğul olan Bəxtiyar Əliyev zəngin təcrübəsinə əsaslanaraq bildirir ki, təhsilin şəxsiyyətyönümlü və humanistləşdirilməsi həyata keçirilən islahatların əsas məzmununu təşkil edən məsələlərdəndir: "Təkcə yüksək bilik, bacarıq, vərdişlərə yiyələnmiş mütəxəssisin deyil, vətəndaş mövqeyində olan, vətənini sevən və öz müstəqil dövləti üçün düşünən, milli dövlətçiliyə töhfəsini verən şəxsiyyətin formalaşdırılması vacib məsələlərdən biri kimi təhsildə qarşıya hədəf qoyulub. Çünki milli identiklik olmadan, milli dövlət qurmaq mümkün deyil. Bu baxımdan bütün ümumi təhsilin səviyyələrində, uşaqların psixi inkişafı ilə bağlı yaş dövrləri və xüsusiyyətləri hökmən nəzərə alınmalıdır. Hər bir yaş dövründə uşağın hafizəsinin, diqqətinin, təfəkkürünün, təxəyyülünün xüsusiyyətləri var. Biz bunları nəzərə almadan, tərbiyə və təlim prosesini düzgün qura bilmərik".

### Müəllimin dərsə, təlim-tərbiyə prosesinə münasibəti dəyişib

"Azərbaycanda təhsil islahatları müvafiq dövlət proqramı əsasında, Prezident İlham Əliyevin imzaladığı "Azərbaycanda təhsilin inkişafı üzrə Dövlət Strategiyası"na uyğun olaraq 2013-cü ildən həyata keçirilir və artıq bu istiqamətdə xeyli işlər görülüb"- söyləyən professor Bəxtiyar Əliyev bildirir ki, qarşıya qoyulan hədəflərdən bir çoxuna nail olunub. Artıq 500 baldan çox nəticə göstərən abituriyentlər müəllimlik peşəsini seçirlər. Bu isə o deməkdir ki, ixtisasın məzmunu dəyişdirilib və müəllimin cəmiyyətdə olan nüfuzu geri qaytarılıb. Bununla paralel müəllimlərin diaqnostik qiymətləndirilməsinin aparılması, məktəb direktorlarının imtahanlarla seçilməsi, ixtisasartırmaların günün tələbləri və müvafiq standartlar əsasında qurulması bütövlükdə məktəbə və müəllimin dərsə, təlim, tərbiyə prosesinə münasibətini dəyişib.

### Əksər hallarda uşaqlar təhsilə hazır deyildilər

Deputat deyir ki, söhbət artıq kəmiyyətdən yox, keyfiyyətdən gedir. Real gerçəklikdə təhsilin fasiləsizliyi təmin edilib və 5 yaşlı uşaqların məktəbə hazırlığı məktəbəqədər təhsil müəssisələrində və ya ümumtəhsil məktəblərində həyata keçirilir: "Təcrübə göstərirdi ki, əksər hallarda uşaqlar məktəbdə təhsilə hazır deyildilər və bu hazırlığı, uyğunlaşmanı uğurla keçmədən onların təlim nailiyyətləri qazanması, eyni zamanda, əxlaqi normaları mənimsəməsi çətin idi. Hazırda məktəbəqədər təhsilə hazırlıq təqribən 75 faizə yaxın uşaqla əhatə olunub. Halbuki, 10 il əvvəl ölkə üzrə bu göstərici 5 faiz idi və bu, qısa bir müddətdə əldə olunan inqilabi dəyişiklik, yenilikdir".

### Köhnəliklə yeniliyin mübarizəsi

Orta məktəblərdə hazırda istifadə olunan dərsliklərin həddindən çox mürəkkəb olması, bu məsələdə uşaqların yaş səviyyəsinin nəzərə alınmaması ilə bağlı səslənən tənqidlərə münasibət bildirən Bəxtiyar Əliyev nəzərə çatdırır ki, dərsliklər və təlim-tərbiyə prosesi müasir tələblərə uyğunlaşdırılmalıdır. Yəni, hazırlanmış dərsliklər o qədər mürəkkəb olmamalıdır ki, uşağın psixi inkişafını ləngitsin, yaxud da o qədər asan olmamlıdır ki, onun inkişafına təkan verə bilməsin: "Həmçinin dərsliklər şagirdin psixi inkişaf səviyyəsinə uyğun tərtib olunmalı, onların müstəqil və tənqidi düşünmək qabiliyyətini inkişaf etdirməlidir. Biz burada çox informasiya vermək yox, müstəqil düşünmə, qərar qəbul etmə və tənqidi yanaşmanı nəzərdə tuturuq. Belə olduqda həmin şagirdlər müstəqil surətdə materialları oxuya, mənimsəyə və tədqiq edə bilərlər. Bəzən isə informasiya ötürülür. Məsələn, kifayət qədər informasiya var, amma şagirdlər onu qəbul edə, bu bacarıq vərdişinə yiyələnə bilmirlər. Çünki tənqidi və müstəqil düşüncə yoxdur".

Deputat deyir ki, hazırda təhsildə hədəf hər bir şagird, tələbənin öz potensial yaradıcı imkanlarını özü aşkar etmək və onu gerçəkləşdirməyi bacarmasıdır. Müəllim isə bu işdə ancaq köməkçi olmalıdır. Ona görə də ənənəvi təhsildən fərqli olaraq, hansı ki, şagirdə yalnız biliyin ötürülməsi üçün bir obyekt kimi baxılırdı, bu gün isə artıq təhsil alana təhsilin fəal subyekti kimi baxılır. Belə olan halda müəllim yalnız köməkçidir, istiqamət verəndir. Əsas işi görən, o fəallığı göstərən isə bu prosesin mərkəzində dayanan təhsil alandır. Təhsil sahəsində keçirilən islahat ona gətirib çıxarıb ki, müəllim artıq təhsilalanın özünün fəallığını təmin edir və buna köhnəliklə yeniliyin mübarizəsi kimi də baxmaq olar.

### Uşaqların şəxsiyyət kimi formalaşması

Təhsil Nazirliyi tərəfindən "Sağlam təhsil-sağlam millət" adlı pilot proqramın həyata keçirildiyini diqqətə çatdıran AMEA-nın müxbir üzvü Bəxtiyar Əliyev bildirir ki, həmin proqramda şagirdin neçə saat dərslə məşğul olması, fasilələrin müddəti, nə qədər fəal olmaları və digər müddəalar nəzərdə tutulub: "Çünki uşaqlarda fizioloji inkişaf prosesi gedir və uzun müddət hərəkətsizlik onların fiziki inkişafına müəyyən problemlər yaradır. Bir tərəfdən bədən, digər tərəfdən də beyin məşq etməlidir. Eyni zamanda, psixoloji xidmət təşkil olunur, təlim fəaliyyəti zamanı yaşanan emosional halların təlim müvəffəqiyyətlərinə təsiri, uşaqların şəxsiyyət kimi formalaşmasına maneə törədəcək halların aradan qaldırılması, sağlam sosial, psixoloji mühitin məktəblərdən ailələrə daşınmasına xidmət etmək əsas götürülür.

### Ali məktəblərin məzmun və keyfiyyəti dəyişəcək

Bəxtiyar Əliyev hesab edir ki, "Ali təhsil haqqında" qanun layihəsi yaxın zamanda hazırlanıb təsdiq edilərsə, təhsil sahəsindəki qanunvericilik bazası tam təmin edilmiş olacaq. Artıq tədbirlər planı da hazırlanıb və bunlar ali məktəblərin bütün məzmun və keyfiyyətini dəyişəcək: "Deməliyik ki, hazırda ali məktəblərimizin heç də hamısı beynəlxalq standartlara və tələblərə cavab vermir. Bu isə yüksək ixtisaslı, peşəkar kadrların və vətəndaşın formalaşmasına, hazırlanmasına imkan vermir".

Deputat deyir ki, təhsil sahəsində müəyyən problemlər də var, amma onların həlli üçün təsirli, ardıcıl bir siyasət həyata keçirilir və 2020-ci ildə bu hədəflərə nail olunacaq. Belə olan halda isə yaxın zamanda Azərbaycan təhsili dünyaya mütərəqqi modellərdən birini təqdim edəcək.

### Pedaqoji fakültələrin buraxılışları ürəkaçan deyil

Reallıqdır ki, orta məktəblərdə təhsilin müasir metodlarla tədrisinə daha yaxşı nail olunması üçün müəllimlərin təkmilləşdirilməsinə də böyük ehtiyac var.

*Dəfələrlə müxtəlif nominasiyalarda ilin ən yaxşı müəllimi seçilmiş və Azərbaycan dili üzrə kurikulum layihəsində milli məsləhətçi kimi fəaliyyət göstərmiş təhsil eksperti, filologiya üzrə fəlsəfə doktoru* ***Şəmil Sadiq*** *bu sahədə pedaqoji fakültələrin buraxılışlarının ürəkaçan olmadığını vurğulayır.*

O deyir ki, məhz bu amil orta məktəblərdə yeniliklərin tətbiq olunmasını ləngidir: "Azərbaycan dinamik inkişaf edən dövlətdir və dünyaya inteqrasiyada heç vaxt ləngimir. 2006-cı ildən yeni kurikulum layihəsinin həyata keçməsi, dərsliklərin yenidən hazırlanması, müəllimlər üçün yüzlərlə treninqin keçirilməsi bunun əyani sübutudur. Lakin etiraf etmək lazımdır ki, müəllimlərin təkmilləşməsi, zamanın tələbinə uyğunlaşdırılması çox ağır prosesdir. İstər "Təhsil haqqında" qanun, istərsə də fənn kurikulumları yetərincə mütərəqqidir, lakin bunun icrasında problemlər hələ də qalmaqdadır. Zənnimcə, bunun əsas amili universitetlərin pedaqoji fakültələrinin buraxılışlarının ürəkaçan olmamasındadır. Bu da Təhsil Nazirliyinin orta məktəblərdə köklü islahatları tam miqyasda aparmaq istəyini həyata keçirməkdə çətinlik yaradır. Bu gün məktəblərimizdə texnoloji imkanlar, infrastruktur çox inkişaf edir, fərdi yanaşma tələbləri daim vurğulanır. Amma bunun müqabilində universitetdən məktəbə gələn gənc kadrlar bu tələblərə demək olar ki, cavab verə bilmirlər".

Universitet təhsilinin pedaqoji sahədə ümidləri doğrultmadığını və müəllimlərin müəyyən səviyyəyə gəlib çatmasının xeyli zamana və əlavə xərclərə başa gəldiyini söyləyən Şəmil Sadiq bildirir ki, ən mükəmməl tədris modellərindən sayılan Finlandiya təhsilinin birinci uğuru müəllimlərin hazırlanmasındakı düzgün metodlardır: "Bu problemin bir əsas qaynağı da valideynlərdir ki, onlar da zamanın tələblərinə uyğunlaşmasa, biz təhsili istədiyimiz səviyyəyə qaldıra bilmərik. Günümüzün şagirdi çeviklik, praktik zəka və analitik olmağı tələb edir, amma təhsil verənlər buna cavab verə bilməyəndə yazılan bütün qanunların, layihələrin tələbəni ödəyə bilmirik. Onun üçün də düşünürəm ki, qarşıdakı illərdə müəllimlərin təkmilləşdirilməsi üçün ciddi və davamlı layihələrə ehtiyac var".

### Uşaqlar bilgi yüklü robota çevrilə bilər

"Birmənalı şəkildə deyə bilərəm ki, bugünkü orta məktəb tədris proqramı insan yetişdirmək üçün çox ağırdır" - deyən fəlsəfə doktoru izah edir ki, daha çox bilgi yönümlü təhsil sisteminə malik olduğumuzdan şagirdlərin yükünün ağırlığı xüsusi diqqət cəlb edir. Dünya təhsil sistemində yanaşmalar çoxdan dəyişib. Artıq elm, bilik öyrənməyin yeri universitetlər, elm mərkəzləridir. Məktəb isə ilk olaraq tərbiyə müəssisəsi olmalıdır. O tərbiyə ki, içində milli ideologiya, əxlaqi dəyərlər, insani münasibətlər, özünüifadə, bacarıqlar və digər meyarlar daşısın: "Lakin bu gün bizim şagird, valideyn və müəllimi sadəcə, universitet birləşdirir. Hər kəs bu yarışın içindədir. Tədris proqramı vətəndaş yetişdirməyə köklənmədikcə, bu acınacaqlı durumu davamlı yaşayacağıq. Uşaqlar bilgi yüklü bir robota çevriləcək ki, bu da milli dövlətçilik yönündə zərərli addımdır".

### Şagirdi necə yaxşı vətəndaş etməli

Şəmil Sadiq qeyd edir ki, universitetlərə qəbul proqramının yaddaş yüklü olması müəllimləri öz müqəddəs funksiyalarını unudub şagirdlərə bilik əzbərlətdirməklə məşğul edir ki, bu da heç bir halda ümummilli və bəşəri məqsədləri ifadə etmir.

Bugünkü təhsil, toxunaraq öyrənməyi tələb edir, nəzəri biliklərin əzbərlədilməsini yox. Hər bir uğurlu insan məktəbdə əzbərlədiyi tərifə görə deyil, əldə etdiyi bacarığa görə həyatda yaşamını asanlaşdırır və cəmiyyətə də faydalı olur: "Nəzəriyyələr önəmlidir, amma o nəzəriyyələr praktika zamanı mənimsəniləndə daha davamlı olur. Şagird qrammatikanı mənimsəyib, düzgün və səlis danışmırsa, tarixi faktları əzbərləyib millətini tanımırsa, biologiyadan beş alıb bir dostunun qolu çıxdığı zaman ona ilk tibbi yardım göstərmək bacarığı yoxdursa, fizikanın düsturlarını, təriflərini öyrənib bir məftili o birinə bağlaya bilmirsə, riyazi düsturu əzbərləyib, ailə büdcəsini idarə etməyə qadir deyilsə, bütün şair və yazıçılarımızın həyat və yaradıcılığını öyrənib, insani dəyərlərə hörmət etmirsə, sevməyi, sevilməyi bacarmırsa, ünsiyyət problemindən əziyyət çəkirsə, o insan ölkəyə necə yaxşı vətəndaş olacaq?!".

### Qiymət, imtahan, valideyn qorxusu...

Fəlsəfə doktoru söyləyir ki, Təhsil Nazirliyinin son dövrlərdə müəyyənləşdirdiyi ən böyük tələblərdən biri həyati bacarıqlara uyğun tədrisdir. Lakin hələ də müəllimlərimizin əksəriyyəti ya bu yöndə işləyə bilmir, ya da valideynlərimiz tərəfindən buna imkan verilmir: "Bir müəllim dərsini oyun və əyləncə əsasında keçməyə cəhd edəndə təəssüflər olsun valideynlərimiz bunu klassik baxışla qəbul etmir, "bu necə dərsdir, bizim vaxtımızda belə deyildi" deyib, müəllimi kreativ təşəbbüsündən çəkindirməyə cəhd edir. Tədrisə yanaşma çoxdan dəyişilməlidir, şagird məktəbdə xoşbəxt olmalıdır, ola bilmirsə, demək, məktəb işini düzgün qura bilməyib. Bizim şagirdlər bu gün məktəbə çox hallarda getməyə məhkum olduqları yer kimi baxırlar, ona görə də öyrəndikləri ruhlarına hopmur. Bunun yeganə səbəbi ağır düsturların, mühazirə xarakterli çıxışların, məcburi öyrədilmə cəhdlərinin problemidir".

Araşdırmadan da göründüyü kimi, təkcə orta məktəblərdə təhsilin modern üslubda tədrisi bu sahədəki çatışmazlıqları aradan qaldırmayacaq. Paralel olaraq ali məktəblərə qəbul proqramında da dəyişikliklər mütləqdir. Əks təqdirdə, bilgi yüklü qəbul proqramı, müasir üsulla təhsil almış şagirdin standartları ilə üst-üstə düşməyəcək və o, yenidən əzbər öyrənməyə meyillənəcək.

*O da həqiqətdir ki, yaxşı təhsil nə universitet məzunu olmaq, nə də yüksək bilik sahibinə çevrilməklə ölçülür. Burada əsas olan təhsil aldığın, ya da işlədiyin sahədə özünü rahat və xöşbəxt hiss edə bilməndir. Onun üçün də şagirdi qiymət nigarançılığına, imtahan təlaşına, valideyn qorxusuna öyrətməkdən əl çəkilməli, onu maraqlandıracaq yollar aranmalıdır...*

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***



# Qarabağın şöhrət rəmzləri

## Dövlət onları yaşatmağa böyük önəm verir

*Əvvəli 1-ci səh.*











Ölkənin ayrı-ayrı bölgələrində məskunlaşan ağdamlı məcburi köçkün ailələri həvəslə, dövlətə, Prezidentə minnətdarlıq hissi ilə doğma rayona, rahat, geniş və işqlı mənzillərə köçdülər. İndi Ağdam rayonu ərazisində yaşayan əhalinin sayı 90 min nəfərdən çoxdur.

Azərbaycanın özü qədər qədim olan Qarabağın əsrlər öncə formalaşmış özünəməxsus simvolları var. Bu tarixi-mədəni simvollar sırasında musiqi, xalçaçılıq və atçılıq Ağdam üçün xüsusilə xarakterikdir. Minnətdarlıq doğuran bir reallıqdır ki, Ağdama ünvanlanan dövlət qayğısında yuxarıda qeyd etdiyimiz bu üç məqama böyük önəm verilir. Ağdam Rayonu İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov söhbət zamanı deyir:

- Keçən il noyabrın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdama növbəti və tarixi bir səfəri gerçəkləşdirdilər. Minnətdarlıqla deyə bilərəm ki, Ağdam hər zaman dövlət qayğısının mərkəzində yer alıb. Amma bu tarixi səfəri fərqləndirən xüsusi özəlliklər var. Təbii ki, dövlət başçısının hər səfəri yaddaşlarda iz qoyur, bölgənin sosial-iqtisadi inkişafına güclü stimul verir. Hər bir rayon sakinində hədsiz razılıq doğurur ki, dövlət başçısı Ağdamın şöhrət simvollarını yaşatmaq, gələcək nəsillərə inkişaf etmiş dolğun bir forma və məzmunda çatdırmaq üçün necə misilsiz işlər görür. Ağdamın şöhrət simvollarından biri, bəlkə də birincisi musiqidir. Ağdam Azərbaycanın musiqi mədəniyyəti tarixinə zaman-zaman görkəmli sənətkarlar vermişdir. Heydər Əliyev Fondunun təşəbbüsü ilə Quzanlıda milli memarlıq ənənələrini özündə əks etdirən möhtəşəm Muğam Mərkəzinin inşa edilib sənətsevərlərin istifadəsinə verilməsi Ağdamın mədəni həyatında son dərəcə əlamətdar bir hadisədir. Ağdamın, Qarabağın şöhrət simvolu olan atçılığın inkişafına artan dövlət qayğısı da xüsusi əhəmiyyət kəsb edir. Qarabağ atlarının şöhrəti hələ əsrlər öncə Avropanı fəth etmişdir. Təəssüf ki, Ermənistanın işğalçılıq siyasəti Ağdam atçılıq zavoduna da məcburi köçkünlük həyatı yaşatmışdır. Buna baxmayaraq, dövlətin böyük qayğısı sayəsində Qarabağ atçılığı indi yeni intibah dövrünü yaşayır. Dövlət başçısının imzaladığı sərəncamlar əsasında "Qarabağ Atçılıq Təsərrüfatı" MMC üçün 35,5 hektarlıq ərazidə müasir tələblərə cavab verən Qarabağ Atçılıq Kompleksi inşa edilmişdir.

Qarabağın şöhrət simvollarından danışarkən xalçaçılığı da unutmaq olmaz. Xalçaçılıq Azərbaycan milli mədəniyyətinin bariz nümunəsidir. Onun qorunub saxlanılması, inkişaf etdirilməsi üçün dövlət öz zəruri qayğısını əsirgəmir. Azərbaycan xalçaçılığında Qarabağ məktəbinin xüsusi yeri vardır. Dövlət başçısının təşəbbüsü ilə "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Ağdam filialı tikilib istifadəyə verilmişdir. Burada 150 nəfərdən çox rayon sakini üçün yeni iş yeri açılmışdır.

Hər zaman dövlətinə, prezidentinə sədaqətli olan ağdamlılar Qarabağın tezliklə işğaldan azad ediləcəyinə birmənalı şəkildə inanırlar. Bu inam Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin yeritdiyi müdrik siyasətdən, qətiyyətli və prinsipial mövqedən qaynaqlanır. Biz inanırıq ki, bu gün Ağdamın şöhrət simvollarını yaşatmaq üçün böyük işlər görən Prezident İlham Əliyev Ağdamı, bütöv Qarabağı işğaldan azad etməyə də nail olacaqdır. Azərbaycan əsgərinin yenilməz gücü, ordumuzun artan qüdrəti və xalqımızın dəstəyi ilə.

Vaqif Həsənov söhbətində yeni ildə qarşıda duran vəzifələrdən də ətraflı danışdı. Bu cəbhə bölgəsinin sakinləri dövlətin qayğısından güc alaraq istifadə etdikləri torpağın hər qarışından maksimum səmərə əldə etməyə çalışır, halal zəhmətləri ilə məhsul bolluğu yaratmağa nail olurlar. Keçən il taxıl, pambıq, barama, şəkər çuğunduru, bostan məhsulları, meyvə-tərəvəz, həmçinin heyvandarlıq məhsulları istehsalında yüksək göstəricilərə nail olunmuşdur. Kənd təsərrüfatında ənənəvi sahələrin inkişaf etdirilməsinə xüsusilə böyük önəm verilir.

2018-ci il ağdamlılar üçün son dərəcə əlamətdardır. Musiqi beşiyi olan Ağdamda Muğam Mərkəzi məhz keçən il istifadəyə verildi. Bu, bölgənin muğam sevərlərinə dövlətin misilsiz töhfəsi idi. Bu möhtəşəm sənət məbədindən pərvazlanan "Qarabağ şikəstəsi" yaralı könüllərə əvəzsiz təsəlli olmaqla yanaşı, işğal altındakı torpaqlarımızı azad etməyə, bu şərəfli məqsəd uğrunda mübarizədə hər kəsi bir bayraq altında birləşməyə alovlu çağırışdır.

İndi güclü və müasir maddi-texniki bazaya malik Qarabağ Atçılıq Kompleksinin imkanları müqayisəedilməz dərəcədə genişlənmişdir. Göstərilən qayğıdan, yaradılmış gözəl şəraitdən güc alan ağdamlılar Qarabağ at cinsinin şöhrətini daha da artırmaq üçün səy və bacarıqalrını əsirgəmir, əsl fədakarlıq nümunəsi göstərirlər.

Böyük sevinclə "Azərxalça" ASC-nin Ağdam filialında bir araya gələn qız-gəlinlərin toxuduğu xalçalar Qarabağın füsunkar təbiətini özündə əks etdirir. Heç şübhəsiz, bu xalçaların zəngin naxışlarında yurd həsrəti, vətən nisgili də öz bədii təcəssümünü tapacaqdır. Xalçaçı qızların əllərinin hərarəti, ürəklərinin istəyi ilə ərsəyə gələn, danışan naxışları, al-əlvan ilmələri ilə göz oxşayan Qarabağ xalçaları tezliklə dünya muzeylərinin nadir incilərinə çevriləcəkdir.

Keçən il ünvan tapan Qarabağ Muğam Mərkəzinə, xalça fabrikinə, Qarabağ Atçılıq Kompleksinə təkcə abadlıq, quruculuq istiqamətində qazanılan uğurların göstəricisi kimi baxmaq doğru olmazdı. Dövlət başçısının təşəbbüsü ilə gerçəkləşən bu möhtəşəm layihələr əslində, Qarabağın şöhrət simvollarını yaradıcılıqla yaşatmağa hesablanan müdrik siyasətin ifadəsidir.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

# Bakı Ali Neft Məktəbi “Huawei” şirkətilə əməkdaşlığa başladı

Bakı Ali Neft Məktəbində (BANM) Çinin ən böyük transmilli şirkətlərindən olan “Huawei” şirkətinin Azərbaycan nümayəndəliyi ilə görüş keçirilib. Görüşdə BANM-ın rektoru Elmar Qasımov, “Huawei” şirkətinin Azərbaycan nümayəndəliyinin rəhbəri Lu Kanlin, şirkətin proqramlar üzrə menecerləri Eldar Cəbrayılov və Tao Ziven, Ali Məktəbin tələbləri və məsul əməkdaşları iştirak ediblər.




Tədbirdə qonaqları salamlayan rektor Elmar Qasımov çoxlu sayda transmilli şirkətlərlə əməkdaşlıq edən BANM-ın partnyorları sırasına “Huawei” şirkətinin də qoşulmasından çox məmnun olduğunu bildirib. Rektor qeyd edib ki, gələcək nəsli İT baxımından daha mükəmməl yetişdirmək məqsədilə biliklərini daim paylaşan “Huawei” şirkətinin BANM-ın Proseslərin avtomatlaşdırılması kafedrası və bu ixtisasda təhsil alan tələbələrilə çalışması onun sosial iş prinsiplərilə üst-üstə düşəcək.

“Huawei” şirkətinin Azərbaycan nümayəndəliyinin rəhbəri Lu Kanlin avtomatika sahəsində güclü mütəxəssislər hazırlayan BANM ilə təmsil etdiyi şirkətin əməkdaşlığını yüksək qiymətləndirdiyini və bu əməkdaşlıq üçün lazımi dəstək göstərilməsinə hazır olduğunu qeyd edib.

Daha sonra şirkətin proqramlar üzrə meneceri Tao Ziven Ali Məktəbin tələbələrinə şirkətin tarixi, onun fəaliyyət sahələri, korporativ dəyərləri, iş prinsipləri haqqında təqdimat edib, tələbələri maraqlandıran çoxsaylı sualları cavablandırıb.

Görüşdə, həmçinin BANM ilə “Huawei” şirkətinin Azərbaycan nümayəndəliyi arasında Anlaşma Memorandumu imzalanıb. Memorandumun əsas məqsədi BANM-da yüksək ixtisaslı mütəxəssislərin hazırlanması üçün zəruri maddi-texniki, elmi-metodiki və təşkilati tədbirlərin həyata keçirilməsini təmin etməkdir.

Memorandumun şərtlərinə əsasən, tərəflər ali məktəbin tələbələrinin şirkətin təşkil etdiyi təcrübə proqramlarında iştirakı, şirkətin xaricdən Azərbaycana gələn mütəxəssislərinin BANM-ın tələbələri üçün mühazirələr oxumasının təşkil olunması, tədris prosesində istifadə üçün ali məktəbin proqram təminatı ilə təchiz edilməsi, BANM məzunları üçün şirkətin müvafiq tələb və şərtləri çərçivəsində karyera imkanlarının yaradılması istiqamətlərində əməkdaşlıq edəcəklər.

Qeyd edək ki, “Huawei” şirkəti telekommunikasiya avadanlığı, elektronika, süni intellekt və texnologiyalara əsaslanan xidmət və məhsulların istehsalında ixtisaslaşan Çinin transmilli özəl şirkətidir. Hazırda şirkətdə 180,000-dən artıq işçi çalışır, onlardan 76,000-i tədqiqat və inkişaf sahəsində fəaliyyət göstərir. “Huawei” dünyanın 170 ölkəsində öz məhsullarını istehsal edir, 1500-dən artıq şəbəkə yaradaraq dünya əhalisinin 1/3-nə xidmət edir.

***“Azərbaycan”***

# Ermənistanda mətbuata qarşı yeni “repressiya maşını” işə salınır

## Bu ölkənin iqtidarının iqtisadi siyasətindən də narazılıq artıb

Ermənistanda hakimiyyət dəyişikliyindən sonra ölkədə müsbətə doğru hansısa yeniliklərin olacağına dair bütün ümidlərin artıq tam məhv olduğu üzə çıxır. Çünki iqtisadiyyatdan tutmuş siyasət və digər sahələrə qədər vəziyyətin daha sürətlə pisləşməsi özünü qabarıq göstərir.

Bu xüsusda neqativ proseslərin işıqlandırılmasının qarşısını almaq üçün hökumətin artıq mediaya qarşı genişmiqyaslı təzyiqlərə start verməsi də müşahidə olunur. Buna əsas səbəb kimi iqtidar medianın əvvəlki hakimiyyət təmsilçilərinin əlində olmasını göstərir.

### Azad media sıxışdırılır

Ermənistanın baş naziri Paşinyan bu xüsusda qeyd edir: “Ermənistanda inqilabdan sonra əmlakın yenidən bölüşdürülməsi baş tutmayıb və bu, kütləvi informasiya vasitələrinə də aiddir”.

Onun sözlərinə görə, ölkədəki media vasitələri ya keçmiş hökumət nümayəndələrinə, ya da hazırkı hökumət qüvvələrinə müxalif olanlara məxsusdur: “Hazırda hökumət nə maliyyə, nə də informasiya resurslarına sahibdir. Ona görə ki, hazırkı media resursları ya müstəqildir, ya da müxalif qüvvələrin əlində cəmləşir. Mən niyə bu haqda deyirəm və bu nə üçün vacibdir? Səbəb sadəcə birdir. Hazırda mediada bizim hökuməti “respublikaçılaşdırmaq” cəhdləri baş verir. Bu nə deməkdir? Bu cür cəhdlərlə göstərmək istəyirlər ki, Ermənistanda olan dəyişikliklər mənasızdır və ölkədə heç nə dəyişməyib”.

Paşinyan qeyd edir ki, hökumət kifayət qədər maliyyə və informasiya resursuna sahib olmadığından bu cür yalan məlumatların qarşısını ala bilmir. Onun bu çıxışına medianın reaksiyası birmənalı olmayıb.

Ermənistanın nüfuzlu media qurumları bildiriblər ki, baş nazir Paşinyan özü 1999-2012-ci illərdə sabiq prezidentlər Robert Koçaryanla Serj Sarkisyana qarşı qatı müxalif mövqedə olan “Aykakan Jamanak” qəzetinin redaktoru olub və dayanmadan dövlətin yürütdüyü siyasətin əleyhinə yazılar dərc edib. Hətta Paşinyanın qərbpərəst olmasına rəğmən, o zamanlar ABŞ-ın Ermənistandakı səfiri olmuş Con Evans Vaşinqtona yazdığı məxfi raportda “Aykakan Jamanak”ın “reallıqda öz təsdiqini tapmayan əsassız və yalan hekayələr yazan qəzet” olduğunu qeyd etmişdi.

Bu səbəbdən də, indi erməni mediası yeni hakimiyyətin ölkədəki müxalif səsləri boğmaq naminə verdiyi çəhrayı vədlərlə bağlı xalqın hesabat tələbindən qaçmaq məqsədilə belə bir çıxış etdiyini yazır. Qeyd olunur ki, iqtidar bir zamanlar sələflərinə qarşı elə özlərinin yaratdığı təhlükədən sığortalanmaq üçün artıq Ermənistanda azad medianı sıxışdırmaq və informasiya sahəsini bütünlüklə dövlətin nəzarətinə keçirmək istəyir.

### Qazla təminat sahəsində vəziyyət ağırdır

Media ilə yanaşı, iqtidarın iqtisadi siyasətindən də narazılıqlar artır. Ermənistan Demokrat Partiyasının lideri Aram Sarkisyan bildirir ki, yeni hakimiyyətin yanlış siyasəti iqtisadi vəziyyəti daha da ağırlaşdırır. O qeyd edir ki, bunun real təsdiqi təbii qazın artan qiymətləridir: “Yanlış siyasət üzündən Rusiya ilk olaraq bizə satılan qazın qiymətini qaldırdı. Qazın qiymətləri erməni xalqı üçün çox vacib məsələdir. Digər təzyiqlər də gözlənilir. Bunların əsas səbəblərindən biri də budur ki, Rusiya və Ermənistan liderləri arasında qarşılıqlı etimad yoxdur”.

Artıq Paşinyanın iddialarının əksinə olaraq, Rusiyadan alınan qazın qiymətində artımlar da əhaliyə təsirsiz ötüşmür. Belə vəziyyətdə Yerevan üçün əsas məqamlardan biri İrandan daha ucuz qiymətə qaz alışına nail olmaqdır.

Amma Ermənistanın “1-in.am” saytı yazır ki, ölkədə qazla təminat sahəsində vəziyyət ağırdır və qarşıdakı dövr ərzində daha çətin durum gözlənir: “Bu durumda Ermənistan İran qazının idxalı haqda məsələnin müzakirəsini davam etdirir. Baş nazir Nikol Paşinyan deyib: “İran qazının idxalı məsələsi müzakirə olunub və həmişə müzakirə olunacaq, çünki konkret və əlverişli həll tapılmayıb”.

Ermənistan 2009-cu ilin 15 mayından İrandan qaz alır. İran qazı “Elektrik əvəzinə qaz” layihəsi çərçivəsində Ermənistan ərazisində emal olunaraq, 1 kubmetr qaza 3 kilovatt hesabı ilə İrana ixrac edilən enerjiyə çevrilir. Paşinyan Rusiya qazının sərhəddə Ermənistan üçün dəyərinin yüksəlməsindən danışaraq bir daha vurğulayıb ki, bu fakt son istehlakçı üçün tarifə təsir etmir. Paşinyan onu da əlavə edib ki, rəsmi İrəvan qaz qiyməti probleminin uzunmüddətli həllini aramaq üçün Rusiya tərəfi ilə danışıqları sürdürəcək: “Biz danışıqları davam etdirəcək və ölkəmizin maraqlarını qorumaq üçün mövqeyimizi ifadə edəcəyik”.

### Enerji tədarükündə ciddi problemlər yaranıb

Amma energetika və təhlükəsizlik üzrə ekspert Vahe Davtyanın fikrincə, İran tərəfinin indiki şəraitdə Ermənistan üçün qaz həcmini artırması, Rusiyanın qaza görə Ermənistana təklif etdiyindən daha rəqabətqabiliyyətli qiymət irəli sürəcəyi ehtimalı azdır: “İrandan tədarük edilən qazın həcminin artırılması imkanı yalnız Moskva ilə Tiflis Gürcüstan üzərindən qaz tranziti haqda razılaşa bilməyəcəyi halda meydana çıxacaq, gerçəklikdə bunun üçün ilkin şərtlər var. Yadınızdadırsa, 2016-da “Qazprom” və Gürcüstan hökuməti arasındakı danışıqlar xeyli çətin olub. Rusiya özəlliklə israr edirdi ki, ödəniş rublla edilsin, halbuki, Gürcüstan barter versiyasına üstünlük verirdi. Rublun devalvasiyası nəzərə alınsa, bu da anlaşılandır. “Qazprom” həmin günlərdə bəzi taktiki uğurlara nail olub və Rusiyanın tranzitə görə rublla ödədiyi və ödənişin davam etdiyi iki illik saziş imzalanıb. “Qazprom” məhz bu danışıqlarda əsas arqument kimi qeyd edib ki, Gürcüstan onun tələbilə razılaşmasa, Rusiya Gürcüstan ərazisinə ümumiyyətlə tranzit kimi baxmağı buraxacaq və Ermənistanı İranın qaz borusu ilə qazla təmin edəcək, əslində isə vurğulayıb ki, İran-Ermənistan qaz borusu infrastrukturuna yiyəlik edir və bu infrastruktur mahiyyətcə məhz Rusiyadan tədarükün həyata keçirilməsinin şaxələndirilmiş alətidir”.

Davtyanın sözlərinə görə, qazın qiymətindən danışsaq və bu yaxınlarda qazın sərhəddə 15 dollar bahalaşması nəzərə alınarsa, Rusiya qazının qiyməti İran qazının dəyəri ilə bərabərləşib: “İndi hər ikisi 165 dollardır. Amma bu halda İran tərəfinin 2019-cu ildə öz qaz sektorundakı tariflərə yenidən baxa biləcəyindən ibarət olan bir sıra amilləri gözə almaq gərəkdir. Çünki İran neft ixrac edən ölkədir, neft bazarında isə son altı ayda çox qəliz proseslər baş verir, özəlliklə də neftin dəyəri 85-dən 55 dollara düşüb və bu tendensiya 2019-cu ildə də sürəcək. Buna görə də bir yandan enerji resursları, özəlliklə də neft ixrac edərək öz büdcəsinin böyük bölümünü təmin edən, o biri yandan sanksiya altında olan və Avropaya ixracat imkanlarını inkişaf etdirmək imkanı olmayan İranın qaz sektorunda öz tariflərinə yenidən baxması lazımdır. Bundan savayı, nəzərə almaq lazım gəlir ki, ötən ilin avqustunda Rusiya-İran işbirliyinin dərinləşməsi üçün əlavə platformaya çevrilən və Xəzər hövzəsinin resurslarından yararlanmaqda iki ölkə arasında olan bütün problemləri həll edən Xəzər konvensiyası imzalanıb. Problemin iqtisadi və geopolitik tərkiblərini daxil etsək, belə bir durum alırıq: İran ən yaxın vaxtlarda Ermənistan kimi xırda bazarda Rusiya təbii qazı ilə rəqabətə girə bilməz - bununla da Rusiya ilə hazırda bütün yönlərdə çevik inkişaf edən münasibətləri pisləşdirər”.

Davtyan “Qazprom”a məxsus infrastrukturdan da danışmağı artıq sayır. Həm nəzəriyyədə, həm də praktikada təsəvvür etmək mümkün deyil ki, İran qazını “Qazprom”un infrastrukturu ilə nəql etmək və işlətmək olar. Ekspert sonda vurğulayıb ki, Ermənistan İrana şaxələndirmə yönü kimi yanaşırsa, yeni infrastrukturun inşasına başlaması gərəkdir, amma beynəlxalq sınaqlar göstərir ki, enerji ixracatçısı olan ölkələr oxşar proqramlara girişir. Buna görə də demək olar ki, top İranın meydanındadır. Sanksiyalar və Rusiya ilə sıx hərbi-siyasi münasibətlərin gəlişməsi gözə alınsa, güman etmirəm ki, ən yaxın zamanda o, belə bir təşəbbüslə çıxış etsin”.

Elə bu vəziyyətdə Ermənistanın enerji tədarükündə vəziyyətinin ağırlaşması gözlənilir və belə hal Paşinyandan narazılığı daha da artıracaq.

***Elçin CƏFƏROV, “Azərbaycan”***

# Beynəlxalq aləm

## ABŞ üçün əsas təhdidlər açıqlandı

Çin ordusunun modernləşdirilməsi və Rusiyanın nüfuz dairəsini genişləndirmək səyləri ABŞ üçün təhdiddir. Bu barədə ABŞ-ın dörd ildə bir dəfə dərc olunan “Milli kəşfiyyat strategiyası”nın yeni redaksiyasında məlumat verilir.



Strategiyanın mətnində deyilir ki, ABŞ təhlükələrin getdikcə daha müxtəlif və bir-biri ilə əlaqəli olduğu mürəkkəbləşən və qeyri-müəyyən dünya ilə üzləşir. Sənədin müəllifləri ABŞ-ın İkinci Dünya müharibəsindən sonra beynəlxalq nizamın zəifləməsindən faydalanmağa çalışan “ənənəvi düşmənlər”indən gələn təhlükəni vurğulayırlar.

Sənəddə deyilir ki, Rusiya nüfuzunu artırmaq üçün səy göstərməkdə davam edəcək. Bu isə ABŞ-ın bir çox regionlarda məqsəd və prioritetlərinə zidd ola bilər.

Sənəddə, həmçinin vurğulanır ki, ABŞ üçün başqa bir təhdid Çin ordusunun modernləşdirilməsi, onun Asiya-Sakit okean regionunda hegemonluğa can atmasıdır.

Strategiyanın müəllifləri digər təhdidlər arasında KXDR-in nüvə proqramını, kibersilahın inkişafını və qlobal siyasi qeyri-sabitliyi qeyd edirlər.

## Suriya Təl-Əviv aeroportunu vurmaqla hədələyir

Suriya Təl-Əviv hava limanına havadan zərbə endirə bilər. Bu barədə ölkənin BMT-də daimi nümayəndəsi Bəşşar Cəfəri məlumat vermişdir.



Diplomat bildirmişdir ki, İsrail ordusu Dəməşq beynəlxalq aeroportunu atəşə tutduqdan sonra ölkənin müdafiə olunmaq və Təl-Əviv hava limanını vurmaq üçün qanuni hüququ var. Cəfərinin fikrincə, bu addıma alternativ kimi BMT Təhlükəsizlik Şurasının Təl-Əvivə münasibətdə tədbirlər görməsi olmalıdır.

Xatırladaq ki, yanvarın 21-nə keçən gecə İsrail hərbi hava qüvvələri Suriya ərazisinə üç raket zərbəsi endirmişdir. Hücumların hədəfi Dəməşq beynəlxalq hava limanının ərazisindəki silah anbarları və digər hərbi obyektlər, habelə Suriya ordusunun hava hücumundan müdafiə kompleksləri olmuşdur. Nəticədə 4 suriyalı hərbçi həlak olmuş, 6-sı yaralanmışdır.



## Venesuela ABŞ-la münasibətlərinə yenidən baxacaq

Venesuela Prezidenti Nikolas Maduro ABŞ-ın vitse-prezidenti Mayk Pensin Bolivar Respublikasının vətəndaşlarına müraciətindən sonra Vaşinqtonla diplomatik münasibətlərə yenidən baxmağı tapşırmışdır. Bu barədə “Röyter” agentliyi xəbər verir.

Maduro mətbuat konfransında çıxış edərkən bildirmişdir ki, yaxın günlərdə yeni tədbirlər barədə məlumat veriləcək: “Bundan əvvəl yüksək vəzifəli məmur heç vaxt deməmişdi ki, müxalifət hökuməti devirməlidir”.

Öz növbəsində Venesuelanın vitse-prezidenti Delsi Rodriges Vaşinqtonu ölkənin daxili işlərinə qarışmaqda ittiham etmiş və ABŞ-a öz vətəndaşlarının qayğısına qalmağı məsləhət görmüşdür. Onun dediyinə görə, ABŞ təhlükəsizlik, səhiyyə, irqçilik və yoxsulluq problemləri ilə məşğul olmalıdır.

Xatırladaq ki, Mayk Pens srağagün sosial şəbəkədən Venesuela xalqına müraciət etmişdir. O, Maduroya etiraz edənləri, habelə müxalifətin lideri Xuan Quaidonu dəstəkləmişdir.

## Dünyada hər üç uşaqdan biri məktəbdə təqibə məruz qalır

Ötən ilin dekabrında hər üç məktəblidən biri ən azı bir dəfə yaşıdları tərəfindən lağa qoyulub, yaxud fiziki zorakılığa məruz qalıb. Bu barədə UNİCEF-in 144 ölkə üzrə hazırladığı yeni hesabatında məlumat verilmişdir.



Eyni zamanda bir çox ölkələrdə belə halların sayının yarıbayarı azaldığı qeyd olunur.

Hesabatda deyilir ki, Şimali Amerika və Avropada məktəblilər bir-birilərinə psixoloji təzyiq göstərirlər. Dünyanın digər regionlarında ilk yeri fiziki təqib, ikinci yeri isə seksual təqib tutur. Oğlanlar daha çox fiziki hücumların qurbanı olur, qızlar isə psixoloji təqibdən əziyyət çəkirlər.

Sənədin müəllifləri həm də kibeməkanda qorxutma hallarının sayının artdığını qeyd edirlər.

Hesabatda qeyd edilir ki, başqalarından nəyi ilə fərqlənən uşaqlar daha tez-tez təqib obyekti olurlar. Şagirdlərin dediklərinə görə, yayılma sayına görə ikinci səbəb irqi müxtəliflik, milliyyət, yaxud dərinin rəngidir.

Sənədin müəllifləri məktəblərdə baş verən zorakılığı və lağa qoymanı ciddi qlobal problemlər kimi qiymətləndirirlər.

## Niaqara şəlaləsi dondu

ABŞ-ın şimal-şərqində güclü şaxta üzündən Niaqara şəlaləsi qismən donmuşdur. Bu barədə CNN telekanalı xəbər verir.

Məlumata görə, şəlalə rayonunda temperatur mənfi 25 dərəcəyə düşmüşdür. Su tozu havada buza çevrilib ağaclara, daşlara və məhəccərə çökür.



Sinoptiklərin proqnozuna görə, yaxın günlərdə ABŞ və Kanadada şaxta güclənəcək.

## Ermənistan silahlı qüvvələrinin bölmələri atəşkəsi pozmaqda davam edir

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 29 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım, Məzəm kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Baş Qərvənd, Yusifcanlı, Mərzili, Füzuli rayonunun Qobu Dilağarda, Qərvənd, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

## Azərbaycan sülhməramlılarının bir qrupu Əfqanıstana yola salınıb



NATO-nun “Qətiyyətli dəstək” missiyasının tərkibində fəaliyyət göstərmək məqsədilə Azərbaycan Ordusunun bir qrup sülhməramlısı plana uyğun olaraq rotasiya qaydasında Əfqanıstana yola salınıb. Müdafiə Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Ordusunun Əfqanıstandakı sülhməramlı missiyası 2002-ci il noyabrın 20-dən başlayıb.

Hazırda Azərbaycan Ordusunun 120 hərbi qulluqçusu, 2 hərbi həkimi və 6 qərargah zabiti Əfqanıstandakı missiyada iştirak edir.


## Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası

*Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının ərazisində nəzərdə tutulmuş müəllim və tələbə yeməkxanalarının yenidən qurulmaqla genişləndirilməsi, akt zalının cari təmiri məqsədi ilə keçirilən açıq tenderə dəvət edir*

LOT-1. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının ərazisində nəzərdə tutulmuş müəllim və tələbə yeməkxanalarının yenidən qurulmaqla genişləndirilməsi, akt zalının cari təmiri işlərinin aparılması.

Tender iştirakçılarına təklif edilir ki, “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq yuxarıda göstərilən LOT üzrə öz yazılı tender təkliflərini möhürlənmiş, imzalanmış, ikiqat bağlanmış zərfdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: səmərəli tender təklifi, yüksək keyfiyyət, təmir sahəsində iş təcrübəsi, müqavilənin vaxtında yerinə yetirilməsi, iddiaçının maliyyə vəziyyəti.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, F.X.Xoyski prospekti, 98, Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının əsas binası, otaq 214 (əlaqələndirici şəxs T.Bədirxanova, tel.: (012 564-10-11) ünvandan ala bilərlər.

LOT-1. 3000 (üç min) manat
BANKIN ADI: KAPİTAL BANKIN GƏNCLİK FİLİALI
KOD: 200189
VÖEN: 9900003611
MÜXBİR HESABI: AZ37NABZ01350100000000001944
SWIFT BİK: AIIBAZ2X
TƏŞKİLAT: AZƏRBAYCAN DÖVLƏT BƏDƏN TƏRBİYƏSİ VƏ İDMAN AKADEMİYASI
H/HESABI: AZ20AIIB38090019440138430118
VÖEN: 1500374911

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- tenderdə iştirak etmək üçün yazılı müraciət;
- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
- tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);
- tender təklifi dəyərinin 2 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;
- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
- müvafiq texnikanın işlək vəziyyətdə mövcudluğu, işçi qüvvəsinin olması, 5 oxşar tikililərin inşa edilməsi sahəsində təcrübəsinin olması;
- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri (notarial qaydada təsdiq edilmiş);
- iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;
- digər sənədlər.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 24 yanvar 2019-cu il saat 17:00-dək, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 06 mart 2019-cu il saat 17:00-dək Bakı şəhəri, F.X.Xoyski prospekti, 98 nömrəli ünvana təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 07 mart 2019-cu il saat 11:00-da Bakı şəhəri, F.X.Xoyski prospekti, 98 nömrəli ünvanda 234-cü otaqda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

Əlaqə nömrəsi: 055 872 72 08, Elvin Vəliyev

*Tender komissiyası*

# “Azərsu” ASC mal-materialların satın alınması məqsədilə

## *açıq tender elan edir*

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Moskva prospekti, 67, “Azərsu” ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentindən (əlaqələndirici şəxs: Hikmət Qasımov, tel.: 431 47 67/2249) ala bilərlər.

**İştirak haqqı hər bir LOT üzrə 200 manatdır**
**Təşkilat: “Azərsu” ASC**
**VÖEN: 9900001751**
**Bank: “Kapital Bank” ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**SWIFT BIK: AİİBAZ2X**
**H/h: AZ65AİİB 33070019441100216111**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət (Tender komissiyasının adına);*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru “Dövlət satınalmaları haqqında” qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 27 fevral 2019-cu il saat 18:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərflərdə 06 mart 2019-cu il saat 16:00-a qədər Bakı şəhəri, Moskva prospekti, 67, “Azərsu” ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 07 mart 2019-cu il saat 16:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# “Azərsu” ASC emallı naqillərin satın alınması məqsədilə

## *açıq tender elan edir*

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Moskva prospekti, 67, “Azərsu” ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentindən (əlaqələndirici şəxs: Hikmət Qasımov, tel.: 431 47 67/2249) ala bilərlər.

**Tenderdə iştirak haqqı 200 manatdır**
**Təşkilat: “Azərsu” ASC**
**VÖEN: 9900001751**
**Bank: “Kapital Bank”ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**SWIFT BIK: AİİBAZ2X**
**H/h : AZ65AİİB 33070019441100216111**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət (Tender komissiyasının adına);*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru “Dövlət satınalmaları haqqında” qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 04 mart 2019-cu il saat 18:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərflərdə 12 mart 2019-cu il saat 16:00-a qədər Bakı şəhəri, Moskva prospekti, 67, “Azərsu” ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 13 mart 2019-cu il saat 16:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# “Azərsu” ASC əl terminalları və sayğac yoxlayan cihazların satın alınması məqsədilə

## *açıq tender elan edir*

**Tender 2 (iki) LOT üzrə keçirilir:**
**LOT 1:** Əl terminallarının satın alınması
**LOT 2:** Sayğac yoxlayan cihazların satın alınması

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Moskva prospekti, 67, “Azərsu” ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentindən (əlaqələndirici şəxs: Hikmət Qasımov, tel.: 431 47 67/2249) ala bilərlər.

**İştirak haqqı hər bir LOT üzrə 200 manatdır**
**Təşkilat: “Azərsu” ASC**
**VÖEN: 9900001751**
**Bank: “Kapital Bank”ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**SWIFT BIK: AİİBAZ2X**
**H/h: AZ65AİİB 33070019441100216111**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət (Tender komissiyasının adına);*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru “Dövlət satınalmaları haqqında” qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 28 fevral 2019-cu il saat 18:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərflərdə 07 mart 2019-cu il saat 16:00-a qədər Bakı şəhəri, Moskva prospekti, 67, “Azərsu” ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 11 mart 2019-cu il saat 16:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

*Təkrar*

# “Bakı Metropoliteni” QSC Depo ərazisindəki Birləşmiş Emalatxanalar və Eskalatorların təmir sexlərinin havalandırma sisteminin quraşdırılması işlərinin satın alınması üzrə

## *açıq tender elan edir*

**Tender 1 (bir) LOT üzrə keçirilir:**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, M.Rəfili küçəsi, 16-dan (əlaqələndirici şəxs: Əlixan Osmanov, telefon: 490-00-91) ala bilərlər.

**LOT-1. Depo ərazisindəki Birləşmiş Emalatxanalar və Eskalatorların təmir sexlərinin havalandırma sisteminin quraşdırılması işlərinin satın alınması**

**İştirak haqqı - 200 manat**
Hesabın adı: BAKI METROPOLITENI QSC
Hesab nömrəsi (IBAN):
AZ98AZRT38050019440010268002 AZN
VÖEN: 1402871431
Bankın adı: AZƏR-TÜRK BANK ASC (Mərkəz Filialı)
Kod: 501361
VÖEN: 9900006111
Müxbir hesabı: AZ02NABZ01350100000000022944
SWIFT BIK: AZRTAZ22
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 40 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 70 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **12 fevral 2019-cu il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **20 fevral 2019-cu il saat 17:00-a** qədər, Bakı şəhəri, M.Rəfili küçəsi, 16 ünvanına “İcraya nəzarət, kargüzarlıq və təsərrüfat işləri” şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **21 fevral 2019-cu il saat 15:00-da** yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# Naxçıvanlı rəssamlar Bəhruz Kəngərli muzeyini ziyarət ediblər

Azərbaycanın milli rəsm sənətinin görkəmli simalarından olan, ilk realist fırça ustası Bəhruz Kəngərlinin anadan olmasının 127 illiyi münasibətlə Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin üzvləri Bəhruz Kəngərli Muzeyini ziyarət ediblər.



AZƏRTAC xəbər verir ki, rəssamlar əvvəlcə Naxçıvan şəhərindəki Bəhruz Kəngərli adına Rəssamlar Parkında rəssamın abidəsi önünə gül dəstələri düzüblər. Sonra muzey ziyarət olunub.

Muzeylə tanışlıq zamanı məlumat verilib ki, Bəhruz Kəngərli Muzeyi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2001-ci il 22 may tarixli Sərəncamı ilə yaradılıb. 2002-ci il iyun ayının 18-də ümummilli lider Heydər Əliyevin iştirakı ilə muzeyin açılışı olub. 2012-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bəhruz Kəngərlinin 120 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb. Bu sərəncama əsasən, Naxçıvan Muxtar Respublikasında da bir sıra işlər görülüb, Bəhruz Kəngərlinin Azərbaycan Milli İncəsənət Muzeyinin fondunda saxlanılan bir çox əsərlərinin surəti çıxarılaraq Bəhruz Kəngərli Muzeyinə verilib. İlk dəfə olaraq rəssamın əsərlərinin tam külliyyatı albom-kataloq şəklində nəşr edilib. Eyni zamanda, muxtar respublikada yubiley münasibətilə poçt markası buraxılıb, görkəmli rəssamın həyat və fəaliyyətinə həsr olunmuş sənədli film hazırlanıb və Bəhruz Kəngərli Muzeyinin yerləşdiyi bina yenidən qurularaq 2013-cü ildə istifadəyə verilib. Bu gün muzeydə realist rəssamın zəngin irsinə aid yüzlərlə eksponat mühafizə olunur.

Bildirilib ki, 30 il ömür sürən Bəhruz Kəngərli zəngin irs qoyub, yeddi il yaradıcılıq fəaliyyəti ilə məşğul olsa da, 2 minə qədər rəsm əsəri yaradıb. O, realist portret və mənzərə rəsm yaradıcılığının, eləcə də Azərbaycan boyakarlığında realizmin əsasını qoymaqla Azərbaycan bədii sənət xəzinəsinə dəyərli nümunələr bəxş edib, onu yeni ictimai məzmun və janr, yeni təsvir metodu və ifadə vasitələri ilə zənginləşdirib. Azərbaycan boyakarlığında realizmin əsasını qoyan Bəhruz Kəngərlinin əsərlərində zəngin lirika, nikbin əhvali-ruhiyyə duyulur. Bu isə rəssamın vətənə, təbiət gözəlliklərinə bəslədiyi sönməz məhəbbətindən qaynaqlanır.

Diqqətə çatdırılıb ki, muzeyin saytı bu mədəniyyət ocağının ekspozisiyası ilə dünyanın istənilən yerindən tanış olmaq imkanı yaradır. Buna görə də həm Bəhruz Kəngərli Muzeyi, həm də Rəssamlar Parkı yerli sənətsevərlər, eyni zamanda, turistlərin mütəmadi ziyarət etdiyi məkanlardan biridir.

## B İ L D İ R İ Ş

“Azərişıq” ASC tərəfindən 1 fazalı SMS sayğacların satın alınması məqsədilə keçirilmiş açıq tenderdə Tender komissiyasının qərarına əsasən qalib elan olunmuş “Sensemi DMCC OF DUBAİ” şirkəti ilə satınalma müqavilələri bağlanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

“Azərişıq” ASC tərəfindən Elektrik qurğuları və avtomobil ehtiyat hissələrin satın alınması məqsədilə keçirilmiş açıq tenderin LOT-3 (Avtomobil şinlərinin satın alınması) üzrə Tender komissiyasının qərarına əsasən “Gatdigital” MMC şirkəti qalib elan olunmuş və satınalma müqavilələri bağlanmışdır.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi iş yoldaşları İlqar Poladova əzizi **SÖYLÜ POLADOVANIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin kollektivi Zərdab rayon İcra və probasiya şöbəsinin böyük icra məmuru **SƏBUHİ CAHANGİR OĞLU KƏRİMOVUN** vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Qeydiyyat və notariat baş idarəsinin kollektivi Mehdi Həsənova əzizi **BƏŞİR QULİYEVİN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1
“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 8272
Sifariş 204
Qiyməti 40 qəpik